33_27 IYUl-QARA.qxd 9/4/2025 10:57 PM Page 1


# UNİKAL

№33 (2263) 5 sentyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az




# Azərbaycanın növbəti diplomatik qələbəsi: Sülh prosesini sürətləndirən addımlar atılır




Səh. 9

# Prezident Bolqarıstandakı səfirimizi geri çağırdı

*Azərbaycanın Bolqarıstanda fövqəladə və səlahiyyətli səfiri Hüseyn Cəlal oğlu Hüseynov vəzifəsindən geri çağırılıb. "Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Qeyd edək ki, H.Hüseynov Prezidentin müvafiq sərəncamı ilə 2021-ci ildə Bolqarıstana səfir təyin olunmuşdu. Hüseyn Cəlal oğlu Hüseynov 1977-ci ildə Bakı şəhərində anadan olub. 1998-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu "Beynəlxalq münasibətlər" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Siyasi idarəetmə" fakültəsinin magistratura şöbəsini fərqlənmə diplomu ilə tamamlayıb.*

Səh. 2

# "Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil"



*İqtisadçı Eldəniz Əmirov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin Çinə işgüzar səfərinin əhəmiyyətindən, qarşıdakı dövrdə Çin şirkətlərinin Qarabağda hansı layihələrlə çıxış edəcəyindən, bu ölkənin Zəngəzur dəhlizinə necə maraq göstərməsindən və Azərbaycanla Çin arasında viza rejiminin...*

Səh. 4

# Azərbaycanda kirayə mənzillərin qiyməti bahalaşır



*"Tələbə axını olduğu üçün müraciətlərin sayı artıb. Müraciətlərin sayının artması isə qiymətə təsir göstərir. Həmçinin burada psixoloji faktor var. Mülkiyyətçi düşünür ki, müraciət edənlərin sayı artdıqca, qiyməti yüksəltmək lazımdır". Bunu "Unikal"a açıqlamasında...*

Səh. 7

# Sabiq deputatdan növbəti absurd açıqlama



*"Əgər deputat, ya məmur özü bizneslə məşğul deyilsə, özünün bu biznesə dəstək verməsi ilə bağlı fakt yoxdursa, burada nə qəbahət var ki? Mən 60-dan çox ölkədə olmuşam, deputatlarla görüşmüşəm. Onların bir çoxunun özü yox, oğlanları, qardaş uşaqları, yaxın və uzaq qohumları bizneslə məşğul olurlar.*

Səh.5

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:58 PM Page 2



# Şəbnəm Rusiyadan deportasiya edilib?



***Müğənni Şəbnəm Tovuzlunun Rusiyadan deportasiya edildiyi iddia olunub.***

Bununla bağlı şayiələrə Şəbnəm özü cavab verib. O, video paylaşaraq xəbərlərin yalan olduğunu söyləyib: "Şayiələr yayırlar ki, "Şəbnəm xanım deportasiya edilib". Allah etməsin. Heç vaxt elə bir şey olmasın. Hazırda da Qazaxıstandayıq, Aktau şəhərindəyik. Hava limanında hər kəsi saxlayırlar, tək mənim başıma gəlmir. İki-üç saat saxlayırlar. Pasportumu yeniləmişdim, demək olar, yer qalmamışdı. Bu da onların diqqətini çəkmişdi. Sabah da Rusiyada toydayıq. Demək olar ki, toylarımız oradadır. Bir də belə bir şey olmasın".

# "Qadın ifaçılar səhnəyə "satılıq mal" kimi çıxırlar"

***"Qadın ifaçılar "satılıq mal" kimi özlərini səhnəyə çıxardırlar. Almanın üstünə parafin vururlar ki, parıldasın. Siləndə görürsən ki, dadlı deyil".***



Axşam.az xəbər verir ki, bu sözləri Xalq artisti Faiq Ağayev müğənni Kərim Abasovun "Meqa şou" verilişində deyib. Ağayev xanım ifaçıları tənqid edib: "Üstəgəl Qafqazda, Azərbaycanda qadın özünü o vəziyyətə salmamalıdır. Elə insanların qarşısını kəsərdim. Bədənin var, qoy sevgilin, həyat yoldaşın onu görsün. Amma efirə belə geyinmə. Gedib əməliyyat edib həkimlərə pul qazandırmısan. Həkim də kimdən qazanmalıdır?".

# Nazir Afaq Başirqızına ordenini təqdim etdi



***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Xalq artisti, görkəmli teatr və kino aktrisası Afaq Başirqızı "Şərəf" ordeni ilə təltif olunub.***

Ötən gün Azərbaycan Dövlət Akademik Musiqili Teatrında keçirilən mərasimdə orden aktrisaya təqdim edilib.

Mədəniyyət naziri Adil Kərimli Afaq Başirqızını 70 illik yubileyi və yüksək dövlət təltifi münasibətilə təbrik edərək, onun səhnə və ekran yaradıcılığının milli mədəniyyətimizin inkişafında mühüm rol oynadığını vurğulayıb.

Mərasimdə aktrisaya həmçinin Mədəniyyət Nazirliyinin Fəxri diplomu və Azərbaycan Teatr Xadimləri İttifaqının "Teatr fədaisi" medalı təqdim olunub.



# "Hərdən Allaha çığırmaq istəyirəm ki, mən niyə..." - Nazpəri Dostəliyeva

***Xalq artisti Nazpəri Dostəliyeva səhnədən getməyə hazırlaşır. "Unikal" pravda.az-a istinadla xəbər verir ki, bu barədə o, "Həftənin qonağı" verilişində danışıb.***

O, bildirib: "Hər gün oyananda Allahıma dua edirəm ki, məni övladıma tez qovuşdursun. Ansamblın uşaqlarını yığıb "Əlvida" adlı konsertimi verib, sənətimdən uzaqlaşmaq istədim. Mənə heç kim kömək etmədi. Hər kəs qarşı çıxdı. Yəqin ki, bir azdan məni sevənlərə "Əlvida" deyib, gözəl bir konsert edib, səhnədən uzaqlaşacağam. Hərdən Allaha çığırmaq istəyirəm ki, mən niyə bu səhnədəyəm".

Xatırladaq ki, Nazpəri Dostəliyevanın oğlu Əli Quliyev 2021-ci ildə 41 yaşında vəfat edib.

# Brilliant Dadaşovadan Bəhrama maraqlı ad günü təbriki

***Xalq artisti Brilliant Dadaşova Əməkdar artist Bəhram Bağırzadəni ad günü münasibəti ilə təbrik edib.***

Müğənni maraqlı təbrikini sosial şəbəkədə paylaşıb. Dadaşova piano arxasına keçərək onun üçün canlı ifa edib.

Müğənni videonu "Səni sevirəm. Ad günün mübarək olsun" qısa şərhi ilə yayımlayıb.

# "Cahil və savadsızlar ağzına gələni yazdı" - Nadir Qafarzadə

***Müğənni Nadir Qafarzadə ünvanına yazılan tənqidlərə cavab verib.***



Bir müddət əvvəl Rusiyaya gedən zaman hava limanında 3 saat gözləyən sənətçi sosial şəbəkədə paylaşımına mənfi rəy yazanları tənqid edib. O bildirib ki, Rusiyada hava limanında insanların gözlətdirilməsi bütün ölkələrdən gələn insanlara şamil edilir: "Savadsız, cahil, dünya görüşü sıfır olanlar ağzına gələni yazır. Onlarla azərbaycanlı oluruq? Yox... Mən o insanla azərbaycanlıyam ki, əxlaqı, dünyagörüşü var. Cəmiyyətə yararlıdır. 11 milyonluq xalqıq, nə olsun? Çox az sayda normal insan var. Allah bəzilərini yaradıb ki, yer üzü boş qalmasın. Burada problem Azərbaycanla bağlı deyil. Kim sərhədi keçirsə, yoxlanış olur, barmaq izi götürülür. Müharibə şəraitində olan ölkədir. Qaydalar da budur. Bir ölkəyə gəlmisənsə, qaydaya əməl etməlisən. Damla xanım gələndə çox rahat keçib gedib, sonra da qayıdıb Bakıya. Məni də tək yox, hamı ilə birlikdə saxlamışdılar".

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:58 PM Page 3






## “Tramp Marşrutu” Azərbaycanla Türkiyə əlaqələrinin daha güclü səhifəsini yazır

***İzmir şəhərində Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın həmsədrliyi ilə Azərbaycan-Türkiyə IV Enerji Forumu keçirilib.***

Energetika Nazirliyindən məlumata görə, Forumun açılışında çıxış edən nazir Pərviz Şahbazov bildirib ki, Azərbaycan və Türkiyə uzun illərdir təkcə enerji sahəsində tərəfdaş deyil, həm də regionun geoiqtisadi mənzərəsini formalaşdıran, sülhə, sabitliyə və davamlı inkişafa töhfə verən, beynəlxalq enerji təhlükəsizliyində birgə addımlayan strateji müttəfiqlərdir.

Energetika naziri deyib ki, Azərbaycan-Türkiyə enerji tərəfdaşlığı ölkələrimizi neft, qaz və bərpa olunan enerji sahəsində uzunmüddətli tərəfdaş kimi möhkəmləndirən, dəyişən geosiyasi reallıqlar fonunda regional və qlobal miqyasda mövqelərimizi gücləndirən yeni mərhələyə daxil olub: “İğdır-Naxçıvan” qaz kəmərinin istifadəyə verilməsi, TPAO şirkətinin “Şəfəq-Asiman” layihəsinə qoşulması, Suriyaya qaz tədarükünə başlanması, “yaşıl enerji interkonnektor”larının qurulması və Zəngəzur dəhlizi, yaxud “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” üzrə razılaşmaların əldə olunması enerji əlaqələrimizin yeni, daha güclü səhifəsini yazır”.

Qeyd olunub ki, Zəngəzur dəhlizi Xəzər dənizi və Mərkəzi Asiyadan həm karbohidrogenlərin, həm də “yaşıl enerji”nin Naxçıvan üzərindən Türkiyə və beynəlxalq bazarlara çatdırılmasını təmin edəcək strateji marşrutdur. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, Türkiyə və türk dövlətləri ilə enerji və kommunikasiya əlaqələrinə yeni güc qatacaq, ölkələrimizi Orta Dəhlizin enerji, nəqliyyat və tranzit üzrə əsas mərkəzlərindən birinə çevirəcək. Bu kontekstdə Naxçıvanla Türkiyə arasında elektrik bağlantılarının yaradılmasının sürətləndirilməsinin vacibliyi vurğulanıb. Həmçinin “yaşıl enerji”nin ixracı və tranziti üzrə Naxçıvan, Zəngəzur marşrutları ilə yanaşı, “Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan” interkonnektorunun da icrasından bəhs edilib.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar isə deyib ki, Türkiyə və Azərbaycan sahib olduqları geostrateji mövqe, zəngin təbii sərvətlər və inkişaf etmiş infrastrukturla bir-birini tamamlayan rollar oynayır, eyni zamanda regional və qlobal enerji təchizatının təhlükəsizliyinə mühüm töhfələr verir. Türkiyə və Azərbaycan güclü infrastruktur və köklü əlaqələri ilə həm regional təchizat təhlükəsizliyində, həm də qlobal bazarlarda etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcək.

Açılış mərasimində iştirak edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev də çıxış edərək iki ölkənin enerji keçidi sahəsində əməkdaşlığının və COP29 təşəbbüsləri üzrə həmrəyliyinin iqlim məsələlərinə töhfələrindən danışıb.

Enerji təhlükəsizliyinin gücləndirilməsi, qlobal və regional enerji qurumlarında əməkdaşlığın davam etdirilməsi, elektrik sahəsində ikitərəfli və çoxtərəfli layihələrin birgə icrası, eləcə də Türkiyədə, Azərbaycanda və üçüncü ölkələrdə enerji və mədənçilik investisiya layihələrinin dəstəklənməsi üzrə əməkdaşlıq etmək razılaşdırılıb. Yekunda “Türkiyə-Azərbaycan IV Enerji Forumunun Protokolu” imzalanıb.

# Vasif Talıbovun daha bir şirkəti ilə bağlı şok qərar

## Naxçıvan MR Ali Məclisinin sabiq sədrinə aid olduğu deyilən “Naxtel”in bağlanmasının pərdəarxası - İlginc iddialar!



***Azərbaycanın yeganə regional mobil operatoru olan “Naxtel” fəaliyyətini dayandırır.***

Naxçıvan Muxtar Respublikasında yerləşən “Naxtel” MMC artıq abunəçilərinə xəbərdarlıq edib, dekabr ayınadək telekommunikasiya xidmətlərini tam dayandıracağını bildirib, abunəçilərə hazırda istifadələrində olan nömrələrin onların adlarında saxlanması və mobil rabitə xidmətlərindən yararlanmağa davam edə bilmələri üçün qarşıdakı üç ay ərzində ölkədə fəaliyyət göstərən digər mobil rabitə operatorlarına “Azercell”ə, ya “Bakcell”ə, ya da “Nar”a müraciət etmələrini məsləhət görüb.

01.12.2025-ci il tarixinədək həmin mobil operatorların şəbəkəsinə keçid etməyən abunəçilərin nömrələri ləğv ediləcək. Belə olan halda nömrədəki mövcud və fərdi qaydada aktiv edilmiş xidmət(lər) deaktiv olunacaq, SIM kartın balansında qalan, vəsaitlər silinəcək (sıfırlanacaq).

2015-ci ildə yaradılmış “Naxtel” 4-cü nəsil GSM + LTE operatorudur. Naxçıvan Muxtar Respublikasının (MR) bütün yaşayış məntəqələrini əhatə edən “Naxtel”in 130 baza stansiyası var.

“Naxtel”ə uzun illər Kamil Yusifov rəhbərlik edib. 2023-ci ilin yayından isə bu vəzifəyə Rəşad Namazov təyin olunub. Rəşad Namazov sözügedən vəzifəyə təyin olunana qədər “Araztech” MMC-yə rəhbərlik edib.

Xatırladaq ki, adı çəkilən mobil operatorun Naxçıvan MR Ali Məclisinin sabiq sədri Vasif Talıbova məxsus olduğu deyilir. Musavat.com-un yazdığına görə, Talıbovun razılığı və ya xeyir-duası olmadan Naxçıvanda bu cür şirkət yaratmaq mümkünsüz iş idi. Mediada bu bağlılığı təsdiq edən xəbərlər yoxdur, lakin Ali Məclisin sabiq sədrinin mobil operatoru da himayə edə biləcəyi haqda çoxsaylı faktlar var. Bəllidir ki, Talıbov Naxçıvanda qapalı rejim yaratmağa çalışıb, illərlə Bakıdan heç bir şirkətin muxtar respublikada hətta filialını, nümayəndəliyini yaratmağa imkan verməyib. Belə görünür ki, “Naxtel” də digər mobil operatorların Naxçıvana girişini yasaqlamaq üçün yaradılıb.

Həmçinin iddia edilir ki, Talıbov vəzifədən uzaqlaşdırıldıqdan sonra ona məxsus olduğu bildirilən “Naxtel”in taleyi ilə bağlı uzun müddətdir qapalı müzakirələr aparıldığı, hətta onun “Azercell” tərəfindən satın alınacağı yönündə xəbərlər dolaşırdı. Lakin sonda “Naxtel”in bağlanmasına qərar verilib.

Azərbaycan İnternet Forumunun (AİF) prezidenti Osman Gündüz sözügedən mobil operatorun bağlanmasından danışarkən ilginc fikirlər səsləndirib. Ekspertin dediyinə görə, “Naxtel” Naxçıvanda ən geniş əhatəyə malik operator idi və 4G xidməti ilə ucqar kəndlərdə belə sabit rabitə təmin edirdi: “Hazırda “Azercell”, “Bakcell” və “Nar” yalnız şəhər və rayon mərkəzlərində fəaliyyət göstərə bilir. “Naxtel”in bağlanması ilə bir çox kəndlərdə insanlar rabitəsiz qalacaq, yaxud mobil telefonlarında ‘İrana xoş gəlmisiniz’ mesajı ilə qarşılaşacaqlar”. O.Gündüz xatırladıb ki, Naxçıvanın Ermənistanla sərhədi dağlarla əhatəlidir və uzun illər İran tərəfindən bölgənin informasiya məkanına müdaxilələr olub. Lakin “Naxtel”in baza stansiyaları gücləndirildikdən sonra bu müdaxilələrin qarşısı müəyyən qədər alına bilmişdi: “İndi isə “Azercell”, “Bakcell” və “Nar”ın zəif infrastrukturu ilə bölgənin informasiya təhlükəsizliyi necə təmin olunacaq?”.

Ekspert həmçinin vurğulayıb ki, Naxçıvan kimi strateji əhəmiyyətli bir bölgədə dayanıqlı rabitə infrastrukturunun birdən-birə sıradan çıxarılması, əhalinin hansı operatora keçəcəyini bilməməsi, mobil cihazlarda hansı ölkənin operatoru tərəfindən qarşılanacağını düşünməsi qəbulolunmazdır: “Bəlkə də “Naxtel”in infrastrukturu dağıdılmadan bu məsələni mərhələli şəkildə həll etmək mümkün idi. Burada söhbət təkcə rabitədən deyil, həm də milli təhlükəsizlikdən gedir.”

Əslən Naxçıvandan olan siyasi şərhçi Aydın Quliyev isə fərqli fikirlər səsləndirib. O deyib ki, Naxçıvanda indiyə qədər “Naxtel” adında ayrıca bir mobil operatorun fəaliyyət göstərməsi normal deyildi: “Bunun hansı dövrdə yaradıldığı bizə bəllidir. O zaman yaradılırdı ki, Naxçıvanda az qala Xarici İşlər Nazirliyi də yaratmaq istəyirdilər, bu da unitar, müstəqil Azərbaycan dövlətçiliyi prinsipi baxımından olduqca yolverilməz idi. Naxçıvan Muxtar Respublikasının əlahiddə bir dövlət qurumu olduğunu nümayişkaranə şəkildə göstərmək o zaman kimlərinsə marağında idi. Bunun ifadə formalarından biri kimi də ayrılıqda mobil operator şirkətini də təsis etmişdilər... Azərbaycan ərazisi nəhəng bir ölkə deyil ki, regional mobil rabitə operatorlarına zərurət olsun. Bütün ölkəni əhatə edəyən mobil operatorların praktikası və çoxluğu daha doğru olar”.

Xatırladaq ki, Vasif Talıbov Naxçıvan MR Ali Məclisinin sədri postundan kənarlaşdırılınca onun biznesinin də taleyi təhlükə altına düşüb. İndiyədək sabiq sədrə aid olduğu deyilən bəzi şirkətlər ya bağlanıb, ya da əl dəyişdirib. Bu prosesə “Gəmiqaya Holdinq”in adının dəyişdirilməsi ilə başlanıb. Vasif Talıbovun oğlu Rzanın uzun müddət prezidenti olduğu “Gəmiqaya Holdinq” 2023-cü ilin ilk günlərində “Arkoz Holdinq”ə çevrilib, ona Bakıdan yeni rəhbər təyin edilib.

Son iki ildə Talıbovla bağlı olduğu iddia edilən və onun əlindən çıxan, daha doğrusu tamamilə bağlanan son şirkət isə belə görünür ki, “Naxtel”dir...

***Toğrul Əliyev***

# Azərbaycanın növbəti diplomatik qələbəsi: Sülh prosesini sürətləndirən addımlar atılır

***Xəbər verildiyi kimi, sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub. Qərara əsasən, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin ABŞ Prezidentinin dəvəti və iştirakı ilə 8 avqust 2025-ci il tarixində Vaşinqton şəhərində baş tutmuş görüşü çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Fəaliyyətdə olan Sədrinə ünvanlanmış birgə müraciət məktubuna uyğun olaraq, ATƏT-in Minsk Prosesinin, ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə 1 sentyabr tarixindən etibarən xitam verilib. Qərarda həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız elan edilib.***

Minsk qrupunun ləğvi Azərbaycan üçün mühüm siyasi və diplomatik nailiyyət sayılır, çünki bu qərar Azərbaycanın illərlə səsləndirdiyi mövqeyi - münaqişənin artıq tarixə qovuşduğunu və yeni əməkdaşlıq mərhələsinin başlandığını təsdiqlədi. Bundan sonra Cənubi Qafqazda sülh gündəliyinin müəyyənləşdirilməsi birbaşa region dövlətlərinin siyasi mövqeyindən və birgə səyindən asılı olacaq.

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Aydın Mirzəzadə bildirib ki, Minsk qrupu 1992-ci ildə ATƏT tərəfindən Azərbaycan və Ermənistan arasında baş verən müharibə ilə bağlı yaradılmışdı: "Bunun məqsədi o idi ki, Dağlıq Qarabağ problemi həll edilsin. Hazırda isə belə bir problem yoxdur. Azərbaycan öz suveren hüquqlarından istifadə edərək torpaqlarını işğaldan azad edib. Bu gün Azərbaycan Ermənistanla şərti sərhədə qədər olan ərazini nəzarətdə saxlayır. Buna görə də, beynəlxalq təşkilatın nəzdində Azərbaycana aid olmayan bir qurumun saxlanılması düzgün hesab edilmirdi. Azərbaycan dəfələrlə onun buraxılması məsələsini qaldırıb", - deyə o qeyd edib.

A.Mirzəzadə xatırladıb ki, 8 avqustda Vaşinqton görüşü zamanı Azərbaycan və Ermənistan xarici işlər nazirləri ATƏT-in Nazirlər Şurasına müraciət edərək Minsk qrupunun buraxılmasını xahiş etdilər: "Qurum müəyyən məsləhətləşmələr həyata keçirdi və qrupun buraxılması qərarına gəldi. Əslində, Minsk qrupunun qalması hər hansı bir rol oynamırdı, çünki problem mövcud deyildi. Problem yox idisə, deməli qurumun qalmasına da ehtiyac yox idi. İş burasındadır ki, bunun formal olaraq qalması gələcəkdə hansısa bir məsələdə erməni millətçilərinin və ya Azərbaycanı sevməyən müəyyən xarici dairələrin Azərbaycana qarşı siyasi həmlələri üçün bir söykənək yeri ola bilər. Bu baxımdan, mövcud olmayan problem üçün qalan qurum ləğv edildi. Bununla da Azərbaycan öz suveren hüquqlarını bir daha təsdiqlədi. Onu da vurğulamaq lazımdır ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi artıq paraflanıb. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını götürdükdən sonra sülh müqaviləsi imzalanacaq və hər iki tərəf arasında normal münasibətlər bərpa ediləcək".




Siyasi şərhçi Aqşin Kərimov isə deyib ki, Azərbaycan Xarici İşlər Nazirliyi ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunması məlumatını Prezident İlham Əliyev Çində olan vaxt təqdim etdi. Onun fikrincə, bu, Azərbaycan-Çin əlaqələri baxımından simvolik məna yükünə malikdir, ehtimalla Pekinin qlobal nizamda yüksəlişi fonunda Bakının vaxt seçimi təsadüfi deyildi: "ATƏT-nin Minsk Qrupunun ləğvi beynəlxalq əlaqələrdə dövlətlər arasında güc, strategiya və hakimiyyətlərin yenidən təşkilatlanmasının getdiyi zamanda baş tutdu. Azərbaycan bu prosesdə öz möhürünü vuraraq köhnəlmiş və qeyri-funksional sistemlərin bir parçası olan institutun ləğvinə nail olur.

Bununla da Prezident İlham Əliyevin özlərini ayrıca qütb kimi təqdim edən güc mərkəzlərinə, əsasən də, Minsk Qrupu formatında ABŞ, Rusiya və Fransaya qarşı çoxgedişli kombinasiyasının xarakteri açılır. Minsk Qrupunun ləğvi Azərbaycanın qlobal nizamın format olunmasındakı rolunu qabardır. Ola bilsin ki, bunun məntiqi davamı gələcək. Ehtimalla Azərbaycanın strategiyası ATƏT strukturunun ləğvi ilə məhdudlaşmayaraq perspektivdə əlavə məsələləri gündəmə gətirəcək. Gümanla, Azərbaycan Çinlə birlikdə beynəlxalq əlaqələrdə münaqişələrin tənzimlənməsində ortaya çıxaraq nəticə əsaslı həll proseslərinə start verəcək".

Müsahibimiz qeyd edib ki, Azərbaycanın Ermənistanla münaqişəyə son qoymaq qabiliyyəti, üstəlik müxtəlif qarşıdurma tərəflərinin arasındakı vasitəçilik potensialı yaqin ki, Çinin geosiyasi maraqları ilə uyğunlaşacaq: "Çünki Çin də ABŞ və Rusiya təsirlərinə alternativ güc kimi çıxış edir və beynəlxalq sistemdə yeni modellərin təşəkkül tapmasında maraqlı görünür. Lakin Azərbaycan hazırda daha diqqətli, ehtiyatlıdır, çünki Çinin həll edilməmiş Tayvan problemi mövcuddur.

Azərbaycan Çinlə beynəlxalq təsisatlara ortaq maraqlardan çıxış edərək aydın şəkildə yanaşması Tayvan məsələsinin həllindən sonra özünü büruzə verə bilər. İstənilən halda, Azərbaycan qlobal idarəçilik istiqamətində çoxşaxəli strategiya həyata keçirən aktor kimi diqqət mərkəzinə düşür.

Bu proses ATƏT-in qurumlarının ləğvi ilə sürət götürür, Bakı bundan sonra alternativ institutlar və modellər yaratmağa səy göstərə bilər".

*Murad İbrahimli*




## ŞƏT təhlükəsizlik baxımından zəif, amma əməkdaşlığın nüvəsidir

***"Çin, Hindistan, uzaq Şərq ölkələrinin dünya iqtisadiyyatındakı payı ilbəil artmaqdadır. Çin Xəzər dənizinin cənub-şərq sahilində iqtisadi cəhətdən bir nömrəli dövlətdir. Çin Orta Asiyada Rusiyanı da, Qərbi də üstələyib".***

Bu barədə Bakıvaxtı.az-a deputat Rasim Musabəyov deyib. Deputat bildirib ki, Çinin Orta Asiya üzərindəki təsirləri Xəzərin qərb sahillərində, yeni Azərbaycanda da artacaq: "Ona görə mühaşidə edirik ki, Şanxay Əməkdaşlıq Təşkilatına Azərbaycanın qoşulmasında ən çox maraqlı olan ölkə məhz Çin və Orta Asiyadakı müttəfiqlərimiz, qardaş türk dövlətləridir. Azərbaycan yeganə dövlətdir ki, Çinin "Bir kəmər, bir yol" layihəsi ilə bağlı infrastrukturu öz vəsaiti hesabına həyata keçirib. Digər ölkələrin hamısı Çindən investisiya alıblar".

Müsahibimiz qeyd edib ki, qonşu Gürcüstanda dəmiryollarının modernləşməsini də Azərbaycan öz üzərinə götürüb. Onun sözlərinə görə, bir milyard dollardan çox vəsait sərf olunub. Azərbaycan təkcə öz ərazisi miqyasında yox, daha geniş miqyasda layihələrin reallaşmasına dəstək verir.

Lakin Musabəyov hesab edir ki, ŞƏT təhlükəsizlik baxımından olduqca zəif təşkilatdır: "Hindistan-Pakistan arasında müharibə gedirdi, amma ŞƏT-dən heç bir reaksiya, addım olmadı. Tacikistan-Qırğızıstan qarşıdurması müharibə səviyyəsinə çatmışdı, ölümlər olmuşdu. Rusiya və Çin müdaxilə etmədilər, Özbəkistan araya girdi, məsələni sakitləşdirdi. Ancaq hər bir halda Çin böyük geopolitik amildir. Rusiyanın Orta Asiya ölkələri üzərində yerimənsinin qarşısını alan ölkə də Çindir. Ümumən, ŞƏT Asiyada əməkdaşlığın nüvəsi rolunda çıxış edə bilir".

## "Telegram" hücumları Xidmət tərəfindən araşdırılır

***"Telegram" mesajlaşma tətbiqi üzərindən həyata keçirilən yeni kiberhücum dalğası ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Zərərverici Analizi Laboratoriyası (MRLab) tərəfindən araşdırma başladılmışdır.***

Bu barədə "Unikal"a Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən bildiriblər.

Məlumata görə, hazırda kibercinayətkarların müəyyənləşdirilməsi, həmçinin insidentlərin miqyası və təsirinin qiymətləndirilməsi istiqamətində MRLab tərəfindən tədqiqat işləri davam etdirilir.

İlkin araşdırma nəticələri ilə bağlı XRİTDX-nin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzinin (CERT) saytında tanış ola bilərsiniz.

33_27 IYUI-QARA.qxd 9/4/2025 10:59 PM Page 5



# Prezident Bolqarıstandakı səfirimizi geri çağırdı



***Azərbaycanın Bolqarıstanda fövqəladə və səlahiyyətli səfiri Hüseyn Cəlal oğlu Hüseynov vəzifəsindən geri çağırılıb.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Qeyd edək ki, H.Hüseynov Prezidentin müvafiq sərəncamı ilə 2021-ci ildə Bolqarıstana səfir təyin olunmuşdu.

Hüseyn Cəlal oğlu Hüseynov 1977-ci ildə Bakı şəhərində anadan olub. 1998-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu "Beynəlxalq münasibətlər" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Siyasi idarəetmə" fakültəsinin magistratura şöbəsini fərqlənmə diplomu ilə tamamlayıb.

2000-2003-cü illərdə həmin akademiyanın aspiranturasında təhsil alıb və 2007-ci ildə siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2021-ci il tarixli sərəncamı ilə Hüseyn Cəlal oğlu Hüseynov Bolqarıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

Qeyd edək ki, Hüseyn Hüseynov Azərbaycan Respublikasının Fransadakı səfiri Leyla Abdullayevanın həyat yoldaşıdır. Leyla Yaşar qızı Abdullayeva 2022-ci ilin oktyabrında Azərbaycanın Fransada fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Cütlüyün iki övladı var.

# NATO-Azərbaycan əməkdaşlığının gücləndirilməsi müzakirə olundu



***NATO-nun hərbi komitəsinin sədri admiral Cüzeppe Kavo Draqone NATO Baş Qərargahında Azərbaycanın hərbi blokdakı nümayəndəliyi ilə görüş keçirib.***

"Unikal" xəbər verir ki, NATO rəsmisi bu barədə özünün "X" hesabında məlumat verib.

"NATO Baş Qərargahında görüş fürsəti üçün təşəkkür edirəm. Mən Azərbaycan-NATO əməkdaşlığı barədə müzakirələrimizi yüksək qiymətləndirirəm. Biz tərəfdaşlığımız üçün gələcək fürsətləri araşdırmağa və dialoqumuzu gücləndirməyə davam edəcəyik",- NATO-nun hərbi komitəsinin sədri qeyd edib.

# Sosial, işsizlikdən və icbari tibbi sığorta daxilolmaları artıb

***Bu ilin yanvar-avqust aylarında Azərbaycanda muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 4 milyard 180,4 milyon manatdan çox olub.***

"Unikal" bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,2 % və yaxud 455,8 milyon manat çoxdur. O cümlədən, son 1 ildə qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 13,2 % artaraq 2 milyard 788,5 milyon manatı keçib.

Hesabat dövründə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 11 % artaraq 148,2 milyon manata, o cümlədən qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 12,3 % artaraq 113,2 milyon manata çatıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# III MDB Oyunlarının Təşkilat Komitəsinin 3-cü iclası keçirilib

***Baş nazirin müavini Samir Şərifovun sədrliyi ilə III MDB Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsinin 3-cü iclası keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Gənclər və İdman Nazirliyinin nəzdində Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin Oyunlara hazırlıq işləri barədə təqdimatları dinlənilib.



Eyni zamanda hava limanı əməliyyatları, nəqliyyat, təhlükəsizlik, uniforma, akkreditasiya, brendinq, tədbirlər, mükafatlandırma, bilet sistemi, logistika, iaşə xidmətləri, təmizlik və tullantıların idarə olunması; inzibati işlər, insan resursları və işçi qüvvəsi, III MDB Oyunları könüllülər proqramı, məkanların idarə olunması, media xidmətləri və kommunikasiya, informasiya texnologiyaları və yayım, idman əməliyyatları, açılış və bağlanış mərasimlərinə hazırlıq, idman qurğularının Oyunlara hazırlığı istiqamətlərində aparılan işlər barədə məlumat verilib.

# Baş Prokurorluqdan Aytacın atasının narazılığına cavab

***Qazax rayonu, Daş Salahlı kənd sakini Aytac Əliyevanın ölümü ilə bağlı aparılmış araşdırmanın nəticələrindən narazılığını ifadə edən mərhumun atası Asif Qurbanovun media vasitəsilə yayımlanmış müraciəti ilə bağlı bildiririk ki, Aytac Əliyevanın cari il yanvarın 12-də intihar etməsi faktı üzrə Qazax rayon prokurorluğunda aparılan araşdırma zamanı hadisə yerinə və meyitə baxış keçirilib, zəruri ekspertizalar təyin olunaraq nəticələri əldə olunub, müvafiq sorğular və əməliyyat tapşırıqları verilib, hadisənin birbaşa şahidləri, zərərçəkmişin valideynləri, eləcə də təcili tibbi yardım əməkdaşlarının izahatları alınıb.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, araşdırmalar nəticəsində Aytac Əliyevanın əri ilə aralarında yaranmış şəxsi münasibətlər zəminində mübahisə zamanı gəmirici əleyhinə dərman içərək daha sonra bıçaqla özünə xəsarət yetirməklə özünü öldürdüyü müəyyən edilib.

Qeyd olunan fakt həmin vaxt orada olmuş zərər çəkmişin qohumlarının, o cümlədən şahidlərinin izahatları, müvafiq ekspertiza rəyləri və digər təkzibolunmaz dəlillərlə öz təsdiqini tapıb.

Toplanmış materiallar əsasında 2 avqust 2025-ci il tarixdə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 39.1.1-ci maddəsinə (cinayət hadisəsinin baş verməməsi) əsasən cinayət işinin başlanması rədd edilib. Həmin



qərardan verilmiş şikayət Qazax rayon məhkəməsinin 27 avqust 2025-ci il tarixli qərarı ilə əsassız hesab olunub, qərar qüvvədə saxlanılıb.

Bir daha media qurumlarından xahiş olunur ki, məlumat və müraciətlərin ictimaiyyətə təqdim edilməsindən əvvəl onların rəsmi dövlət qurumları ilə dəqiqləşdirilməsinə diqqət yetirilsin.

# Zakir Həsənov Vyetnamın Baş naziri ilə görüşdü

***Vyetnamda rəsmi səfərdə olan Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənov həmin ölkənin baş naziri Pham Minh Chinh ilə görüşüb.***

"Unikal"xəbər verir ki, bununla bağlı Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə Azərbaycanla Vyetnam arasında müdafiə sahəsində əməkdaşlığa dair müzakirələr aparılıb.

Səfər çərçivəsində Z.Həsənov, həmçinin Vyetnamlı həmkarı general Phan Van Giang ilə görüşüb.



Görüşdən əvvəl təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Azərbaycan müdafiə naziri "Xatirə dəftəri"nə ürək sözlərini yazıb.

Görüşdə Azərbaycan ilə Vyetnam arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanaraq bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Sonda hər iki ölkənin müdafiə nazirləri tərəfindən hərbi təlim sahəsində əməkdaşlıq üzrə "Niyyət məktubu" imzalanıb.

# Ağdərədə yanğın törədən 3 nəfər saxlanıldı

***Sentyabr 3-də Ağdərə rayonunun Ortatağ kəndində mürəkkəb reylefli dağlıq ərazidə yanğın törədən şəxslər polis əməkdaşları tərəfindən müəyyən olunublar.***

DİN-in Mətbuat Xidmətinin regional qrupundan "Unikal"a bildirilib ki, araşdırmalarla qaynaq işləri apararkən ehtiyasızlıqdan əməli törədən şəxslər - 56 yaşlı Elçin Bağırov, 38 yaşlı Xəyyam Ağayev və 27 yaşlı Asif Qəhrəmanov saxlanılıblar.

Faktla bağlı Tərtər Rayon Polis Şöbəsində cinayət işi başlanılıb, istintaq hərəkətləri aparılır.

# Türk dünyasının liderləri gələn ay Azərbaycana gəlir

***Türk Dövlətləri Təşkilatının (TDT) növbəti rəsmi zirvə toplantısı bu il Azərbaycanda keçiriləcək.***

TDT-nin rəsmi vebsaytında bildirilib ki, 12-ci Zirvə Toplantısı 6-7 oktyabr tarixlərində baş tutacaq.

Zirvə görüşünün hansı şəhərdə baş tutacağı qeyd edilməsə də, bundan əvvəl mətbuatda görüşün Qəbələ şəhərində keçiriləcəyi barədə xəbər yayılıb.

Görüşün gündəliyi hələlik məlum deyil.

Qeyd edək ki, Zirvə Toplantısında üzv və müşahidəçi ölkələrin liderlərinin iştirak edəcəyi qeyd olunur.

Toplantıya aşağıdakı liderlərin qatılacağı gözlənilir:

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev




Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev

Qırğız Respublikasının Prezidenti Sadır Japarov

Macarıstanın Baş naziri Viktor Orban

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov (Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov da dəvət edilib)

TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev

Xatırladaq ki, bu ilin may ayında Macarıstanın paytaxtı Budapeştdə TDT Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.

# Babayandan Xocalı soyqırımı etirafı

***Sentyabrın 4-də Bakı Hərbi Məhkəməsində məhkəmə prosesində təqsirləndirilən şəxs Madat Babayanın ibtidai istintaqa verdiyi ifadə elan olunub.***

"Unikal" xəbər verir ki, onun ibtidai istintaqa ifadəsinin bir hissəsi 1992-ci il fevral ayında baş vermiş Xocalı soyqırımı və ondan sonrakı hadisələrlə bağlı olub.

M.Babayan ibtidai istintaqa ifadəsində qeyd edib ki, fevralın 24-də Arkadi Şirinyan həmin vaxt 3 bölüyün qarşısında çıxış edərək növbəti gün, yəni 1992-ci il fevralın 25-də gecə radələrində hücuma keçərək Xocalıda yaşayan azərbaycanlı dinc əhaliyə qarşı qətliam törədəcəklərini bildirib. Onlar komandir Arkadi Şirinyanın əmrinə uyğun olaraq hazırlıq görməyə başlayıblar.

Hücuma keçməzdən əvvəl Xocalı şəhəri Xankəndi istiqamətində olan yüksək dağlıq ərazidə yerləşən artileriya və reaktiv yaylım atəş sistemlərinin yerləşdiyi mövqelərdən top, minatan və digər təyinatlı mərmilərlə aramsız atəşə tutulub. Təxminən 30-40 dəqiqə davam edən aramsız artileriya, minaatan və "BM-21-QRAD" sistemlərinin atəşlərindən sonra onlar fevralın 25-dən 26-na keçən gecə saat 24 radələrində Xocalı şəhərinə daxil olubar. Şəhərə daxil olduqdan sonra hər iki tərəfdən avtomat, pulemyot, qumbaratanlardan istifadə edilməklə Xocalıda qarşılarına çıxan dinc əhaliyə atəş açmağa, evləri yandırmağa başlayıblar. Bəzi sakinlər ayaqları yalın, qucaqlarında körpə uşaqlarla birlikdə Xocalı şəhərinin yaxınlığından keçən Qarqar çayını keçərək yaxınlıqdakı dağlara doğru və Ağdam rayonunun Şelli kəndi istiqamətində qaçıblar. Qaçan şəxslər əvvəlcədən şəhərin ətrafında postlar quraraq qaçan əhaliyə atəş açıb öldürmək üçün orada gözləyən digər erməni silahlı qüvvələri tərəfindən güllələnib. Xocalı şəhərində evlər talanıb, yandırılıb, qadınlar zorlanıb, insanlar çoxsaylı işgəncələrə məruz qalıb, tank və döyüş maşınları insanların üzərindən keçərək onları əzmişdir. M.Babayan da həmin vaxt əmrə əsasən qadın, kişi, qoca, yaşlı demədən avtomatla hamıya aramsız atəş açıb. Arkadi Şirinyan və digər komandirlər əmr ediblər ki, orada xüsusi vəhşiliklər törədilsin. Ümumiyyətlə Xocalı şəhəri uzun müddət mühasirədə olduğundan sakinlər şəhərdən çıxa bilməyib, hücum zamanı da çox az sayda insan oradan çıxaraq xilas ola bilib.



Təqsirləndirilən şəxs bildirib ki, 1992-ci il fevralın 26-dan martın 8-dək Xocalıda talanlar davam edib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Peşə məktəblərinə qəbulun II mərhələsinin nəticələri açıqlandı

***Peşə təhsil müəssisələrinə tələbə qəbulunun II mərhələsinin nəticələri açıqlanıb.***

Bu barədə "Unikal"a Peşə Təhsili üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, müsabiqədə iştirak edən şəxslərin mobil telefonlarına nəticə barədə SMS göndərilib. Peşə təhsil müəssisələrinə qəbul olan şəxslər qəbul olunduqları ixtisas və təhsil müəssisəsi barədə məlumatları portal.edu.az platformasındakı "şəxsi kabinet" bölümündən əldə edə bilərlər.

Peşə təhsil müəssisələrinə tələbə qəbulunun II mərhələsi çərçivəsində müsabiqədən keçən şəxslər 04 - 10 sentyabr (saat 18:00-dək) tarixlərində aşağıda qeyd olunan sənədləri qəbul olunduğu peşə təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər:



- attestatın əsli;
- sağlamlıq və fiziki inkişafı özündə əks etdirən müvafiq formalı tibbi arayış;
- sistemdən (şəxsi kabinetdə) avtomatik çıxarılan ərizə nümunəsi;
- şəxsiyyət vəsiqəsinin surəti;
- 3 x 4 sm ölçüdə dörd ədəd fotoşəkil;
- hərbi bilet və ya çağırışçı şəhadətnaməsi;
- güzəştli şərtlərlə qəbul edilən şəxslər üçün müvafiq təsdiqedici sənəd.

Qəbulun II mərhələsində müsabiqədən keçən şəxsin qəbul olunduğu peşə təhsil müəssisəsində qeyd edilən tarixlərdə qeydiyyatdan keçməməsi və ya sənədlərini tam təqdim etməməsi onun həmin ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir.

Birinci və ikinci mərhələdə www.portal.edu.az platforması vasitəsilə ümumilikdə 44 000 nəfərdən çox namizəd peşə təhsili almaq üçün müraciət edib.

Qeyd edək ki, 2025/2026-cı tədris ili üzrə tələbə qəbulu 78 peşə təhsili müəssisəsində 13 640 plan yeri üzrə aparılıb. İkinci mərhələdə www.portal.edu.az platforması vasitəsilə 19 292 nəfərdən 72 597 müraciət daxil olub. Ümumilikdə 8341 nəfər müsabiqədən keçib.

# Mərkəzi Bank və Çin Xalq Bankı arasında Memorandum imzalandı

***Azərbaycan Mərkəzi Bankı və Çin Xalq Bankı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.***

Bu barədə "Unikal"a AMB-dən bildirilib.

Qeyd edilib ki, Memorandum iki qurum arasında əməkdaşlığın hüquqi bazasının formalaşdırılması, əlaqələrin gücləndirilməsi, həmçinin qabaqcıl təcrübə istiqamətində məlumat mübadiləsinin aparılmasına töhfə verəcək. Bununla yanaşı, qurumlar monetar siyasət, maliyyə sektoru, ödəniş sistemləri, maliyyə texnologiyaları üzrə məsələləri müzakirə etmək üçün görüş, seminar və işgüzar səfərlərin keçirilməsi sahəsində qarşılıqlı fəaliyyət göstərəcəklər.

Memorandum həm mərkəzi bankçılığın, həm də bütövlükdə hər iki ölkənin maliyyə sektorunun inkişafına öz töhfəsini verəcək.

# Rəsmi Bakı Portuqaliyaya başsağlığı verdi

***Azərbaycan XİN Portuqaliyaya başsağlığı verib.***

"Unikal" xəbər verir ki, bu barədə XİN-in paylaşımında deyilir. "Biz Lissabonun Qloriya funikulyor xəttində baş verən faciəvi relsdən çıxma hadisəsindən dərin kədər duyuruq. Həlak olanların ailələrinə və yaxınlarına ürəkdən başsağlığı verir, yaralananlara isə tezliklə tam sağalma arzulayırıq".

# Rusiyanın nümayəndə heyəti Azərbaycana gəlir

***Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov Rusiya İdman Nazirliyinin və Rusiya Olimpiya Komitəsinin rəhbəri Mixail Deqtyarevi Bakıda keçiriləcək MDB Oyunlarına səfərə dəvət edib.***

Bu barədə Deqtyarev özü KİV-ə bildirib. "Beynəlxalq formatlar ölkələrarası formatda inkişaf edir. Nümayəndə heyətimiz MDB Oyunlarının keçiriləcəyi Bakıya yola düşməyə hazırlaşır. Azərbaycanın idman naziri cənab Qayıbov məni şəxsən dəvət edib, lakin səfərimlə bağlı qərarı ayrıca verəcəyəm", - Deqtyarev bildirib. III MDB Oyunları sentyabrın 28-dən oktyabrın 8-dək Gəncə şəhərində keçiriləcək.

# Aİ Azərbaycan və Ermənistana dəstəyini davam etdirəcək

***Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono Ermənistana səfərinin yekunlarına dair paylaşım edib.***

O, özünün "X" hesabında Ermənistan rəsmiləri ilə Azərbaycan-Ermənistan sülh prosesi, gələcəkdə mümkün sərhəd əməkdaşlığı barədə fikir mübadiləsi apardığını bildirib. Onun sözlərinə görə, Vaşinqtonda iki ölkə arasında əldə olunan razılaşmalardan sonra sülh prosesinin gedişatı müzakirə olunub.

"Aİ yaxın tərəfdaş kimi, davamlı sülhə doğru konkret addımların və tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan və Ermənistana dəstəyini davam etdirəcək", - diplomat qeyd edib.

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 7



## Bakıda saxlanılan ruslar Azərbaycan dilini öyrənməyə başlayıb

***Xəbər verdiyimiz kimi, Rusiya XİN-in sözçüsü Mariya Zaxarova Azərbaycanda saxlanılan rusları azad etməyə çağırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat yayıb. "Mash" teleqram kanalı sözügedən rusların həbsxanadakı vəziyyəti barədə yazı dərc edib.

Məlumata görə, məhbuslar yeməkləri bəyənirlər, onlara meyvə, tərəvəz və çərəzlər verilir.

Həmçinin məhbuslara həftədə iki dəfə yaxınları ilə görüşməyə icazə verildiyi də deyilir.

"Sergey Sofronov və Anton mühafizəçiləri başa düşmək və televiziya kanallarına baxmaq üçün Azərbaycan dilini öyrənməyə başlayıblar", - deyə məlumatda qeyd olunub.

*Ağarza Elçinoğlu*

## "Şərurlu İsfəndiyar"ın cinayət işi üzrə ekspertiza yekunlaşdı

***"Şərur MTK"nın sahibi İsfəndiyar Axundovun ("Şərurlu İsfəndiyar") ona qarşı xüsusi ittiham qaydasında edilmiş şikayət üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal" "Report"a istinadən xəbər verir ki, Binəqədi Rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən İsfəndiyar Axundov da iştirak edib.

Prosesdə linqivistik ekspertizanın yekunlaşdığı və ekspertizanın rəyinin məhkəməyə daxil olduğu bildirilib.

Təqsirləndirilən İsfəndiyar Axundovun vəkilləri prosesə gəlmədiyi üçün iclas sentyabrın 18-nə kimi təxirə salınıb.

Xatırladaq ki, ötən prosesdə təqsirləndirilən İsfəndiyar Axundovun müsahibələrinin birində zərərçəkən Emil Səməndərovu təhqir etdiyini müəyyən etmək üçün linqvistik ekspertizanın keçirilməsi ilə bağlı qərar qəbul olunmuşdu.

Qeyd edək ki, İsfəndiyar Axundov "Proqress 2016 MTK"nın həbsdə olan rəhbəri Emil Səməndərovu dələduz adlandırıb.

Buna görə də Emil Səməndərov İsfəndiyar Axundov barəsində Cinayət Məcəlləsinin 147.2-ci (böhtan) və 148-ci (təhqir) maddələri üzrə xüsusi ittiham qaydasında şikayət edib.

O, İsfəndiyar Axundovun qeyd olunan maddələrlə cəzalandırılmasını istəyib.

## "Minsk qrupunun buraxılması qərarını haqlı sayırıq" - Rusiya XİN

***Rusiya tərəfi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Qarabağ münaqişəsinin həlli üzrə Minsk qrupunun buraxılması ilə bağlı qərarını haqlı sayır.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

Zaxarova xatırladıb ki, Rusiya Federasiyası ATƏT-in digər üzvləri ilə birlikdə konsensus qaydası əsasında bu qərarın qəbulunda birbaşa iştirak edib: "Biz regionda vəziyyətin köklü dəyişməsi ilə əlaqədar bu addımı haqlı və əsaslı hesab edirik.

Minsk institutlarının bağlanması təşəbbüsü Ermənistan və Azərbaycana məxsusdur".

*Ağarza Elçinoğlu*

# "Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil"

## Eldəniz Əmirov: "Bu dəhlizin ən böyük faydası Türkiyə dövləti üçün olacaq, eləcə də, Ermənistan və Mərkəzi Asiya ölkələri də bundan faydalanacaq"

***İqtisadçı Eldəniz Əmirov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin Çinə işgüzar səfərinin əhəmiyyətindən, qarşıdakı dövrdə Çin şirkətlərinin Qarabağda hansı layihələrlə çıxış edəcəyindən, bu ölkənin Zəngəzur dəhlizinə necə maraq göstərməsindən və Azərbaycanla Çin arasında viza rejiminin ləğv edilməsinin turizm əlaqələrinə necə təsir etdəcəyindən danışıb.***

***-Eldəniz müəllim, Prezident İlham Əliyevin Çinə işgüzar səfəri zamanı bu ölkənin bır sıra şirkət rəhbərləri ilə görüşlər keçirilib. Bu görüşlərin iki ölkə arasında iqtisadi əlaqələrə hansı təsirləri olacaq?***

-Cənab Prezident İlham Əliyevin Çində görüşdüyü rəhbər şəxslər enerji qrupu var. Həmin enerji şirkəti bilavasitə elektrik, infrastruktur və inteqrasiya olunmuş digər sistemlərin birbaşa təminatçısı rolunu oynayır. Qlobal reytinqdə bu şirkətlərin hər birinin yeri var. Çinin enerji şirkəti yaşıl enerjinin saxlanılması texnologiyalarını, eyni zamanda relyefi çətin olan ərazilərdə külək, günəş enerjisini və digər enerji növlərinin əldə olunması ilə məşhur olan şirkətdir. Azərbaycan özünün 3-cü alternativ enerji strategiyasını sürətlə həyata keçirməkdədir.

***-Qarşıdakı dövrdə Çin şirkətlərinin Qarabağda hansı layihələrlə çıxış edəcəyini gözləmək olar?***

-Düşünürəm ki, Çin şirkətləri Azərbaycanda, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyətlərini genişləndirəcəklər. Bu gün Çin öz dərisinə sığmayan iqtisadi orenerjiyə və su resurslarına işğaldan azad olunmuş ərazilərimiz daha çox sahibdir. Ölkənin su ehtiyatlarının 1/4-i məhz Qarabağda yerləşir. "Powerchina" şirkətinin ölkəmizdə bu fəaliyyəti gözləniləndir.

Hər bir şirkətin öz fəaliyyət istiqaməti və Azərbaycanla əməkdaşlığa maraqlı olduğu tərəflər var. Çin Milli Kimya Mühəndisliyi şirkəti Azərbaycanla çox böyük layihələr icra etmək niyyətindədir. Bu günə qədər olan görüşlər, müzakirələr və start götürmüş müəyyən layihələr bunu deməyə əsas verir. Bu şirkət bir sıra ölkələrdə ən müxtəlif sahələrdə istehsallar həyata keçirirlər. Hesab edirəm ki, Azərbaycanın xammal neftinin emalı üçün, kimya sənayemizin inkişafı üçün bu şirkətin böyük töhfəsi ola bilər.



dünyanının aparıcı, böyük infrastruktur üzrə qlobal xidmətləri həyata keçirən şirkətlərdir. Məsələn, "CCCC" ("China Communications Construction Company") şirkəti yüz ildən artıq tarixə malikdir, dünyanın 150-dən çox ölkəsində fəaliyyət göstərir. 256 milyard ABŞ dolları həcmində aktivlərə sahibdir. Bu şirkətin 220 mindən çox əməkdaşı var. Ötən il xalis mənfəəti 23,3 milyard dollar olub. Belə bir şirkətlə Azərbaycan arasında olan əlaqələrin güclənməsi mühüm məsələdir. Cənab Prezidentin görüşü əlaqələrin güclənməsini daha da sürətləndirəcək. Bu, ölkə iqtisadiyyatının bir çox istiqamətlərinə, əsasən də infrastruktur quruculuğuna öz müsbət təsirini verəcək. Çinin beynəlxalq qanizmdir. Yəni, öz sərhədləri daxilinə sığmır, genişlənir. Bunun üçün ən münbit şərait olan ölkələrdən biri Azərbaycandır. Bu baxımdan Çin şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsi, iqtisadiyyatımıza töhfə verməsi böyük gözləntiləri olan həqiqətdir. Çinin "Powerchina" şirkəti yaşıl enerji sektoru, eyni zamanda alternativ enerji resursları üzrə ixtisaslaşıb. Onların icra etdiyi layihələr elektroenergetika sahəsini, qeyri-xammal sektorunu, həmçinin, mineral resursları, daşınmaz əmlak bazarını və digər infrastruktur layihələrinin əvvəldən sonadək işlənməsini, o cümlədən məsləhət xidmətlərini həyata keçirirlər. Bu şirkət dünyanın 20 ölkəsində fəaliyyət göstərir. Təbii ki, yaşıl

***-Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, həm də dünya dövlətləri üçün ciddi əhəmiyyətə malikdir. Bu baxımdan Çin Zəngəzur dəhlizinə necə maraq göstərir?***

-Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil. Bu dəhlizin ən böyük faydası Türkiyə dövləti üçün olacaq, eləcə də, Ermənistan və Mərkəzi Asiya ölkələri də bundan faydalanacaq. Bu dəhliz vahid türk dünyasının inteqrasiya problemini həll edəcək. Türkiyənin Orta Asiyaya çıxışını təmin edəcək. Həmçinin, Orta Asiya resurslarının Avropaya istiqamətlənməsini təmi edəcək. Nəticə etibarı ilə Qafqazda yeni kommunukativ sistemin formalaşmasını həyata keçirmiş olacaq.

***- İyul ayından etibarən Azərbaycanla Çin arasında viza rejimi ləğv edilib. Vizanın ləğv edilməsinin iki ölkənin turizm əlaqələrinə hansı müsbət təsirləri olacaq?***

-Viza rejiminin ləğv olunması birmənalı şəkildə turizm sektoruna effekt verəcək. Amma bunun nə dərəcədə olacağını zaman göstərəcək. Viza ləğv olundu turizm sektoru çiçəklənəcək demək sadəlövhlük olar. Ona görə ki, turizm sektorunun çiçəklənməsi üçün bir çox şərtlər ödənməlidir. Hava nəqliyyatı bahadır. Amma vizanın ləğvi təkcə turizmi deyil, eyni zamanda kiçik və orta biznesin inkişafını da dəstəkləyəcək. Viza rejiminin ləğv olunması gediş-gəliş imkanlarını artırır. Bu imkan artdıqca, sahibkarların qarşılıqlı səfərlərinin sayı artır. Qarşılıqlı səfərlərin sayının artması isə mövcud imkanları üzə çıxartmağa fürsət yaradır. Bu da yeni-yeni əməkdaşlıq formatlarının meydana gəlməsinə, mövcud olanların isə inkişafına xidmət edir.

*Anar Kəlbiyev*

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 8



# Sabiq deputatdan növbəti absurd açıqlama

## Rüfət Quliyev indi də məmur biznesinə haqq qazandırmağa çalışır?

***"Əgər deputat, ya məmur özü bizneslə məşğul deyilsə, özünün bu biznesə dəstək verməsi ilə bağlı fakt yoxdursa, burada nə qəbahət var ki? Mən 60-dan çox ölkədə olmuşam, deputatlarla görüşmüşəm. Onların bir çoxunun özü yox, oğlanları, qardaş uşaqları, yaxın və uzaq qohumları bizneslə məşğul olurlar. Hətta həmin biznesi quran o məmur özü olub". Bu "qızıldan qiymətli" sözləri Demokrat.az-a açıqlamasında Milli Məclisin 4 çağırış deputatı Rüfət Quliyev deyib.***

Vaxtilə parlamentin biznesmen-deputatları siyahısında adı ön sıralarda çəkilən keçmiş millət vəkili göstərdiyi Avropa təcrübəsində hər hansı məmurun ailə üzvünün, yaxın qohumunun biznesinin məhz həmin məmur sayəsində çiçəklənsə, böyüsə onu bircə gün belə həmin postda saxlamazlar!

Nümunə lazımdırsa, buyurun: İspaniyada krallıq ailəsinin üzvü, şahzadə Kristinanın əri dövlət sifarişlərindən sui-istifadə edərək şəxsi biznesini dəstəklədiyi üçün məhkəməyə çıxarılmış və 2018-ci ildə həbs cəzası almışdı. Yaxud Braziliyada Mişel Temer hökumətinin bir neçə naziri 2016-2018-ci ildə ailə şirkətlərinə dövlət sifarişləri yönləndirdiyinə görə korrupsiya araşdırmalarına məruz qaldı. Hətta kənd təsərrüfatı naziri Blaqor Maqgi ailə biznesinə dövlət güzəştləri etdiyi üçün istefa verdi. Və ya: Yunanıstanda müdafiə naziri Akis Tsoxatsopulosun qohumları və yaxınları vasitəsilə dövlət müdafiə müqavilələrindən şəxsi gəlir əldə etdiyi sübuta yetirilmiş, 2013-cü ildə korrupsiya və ailə biznesinə qeyri-qanuni dəstək verdiyinə görə o, həbs edilmişdi.



bildirib ki, əgər məmurun o biznesə dəstək olması ilə bağlı fakt yoxdursa, onda o məmura nəsə demək, irad tutmaq olmaz: "Bəli, deputat özü birbaşa biznesə rəhbərlik edə bilməz, amma sahibi ola bilər. Biz bir çox məsələdə Avropaya istinad edirik, misal gətiririk, bəs bunu niyə gətirmirik? Avropada, hətta qardaş Türkiyədə cəmiyyət buna normal formada baxır. Əgər biznesi olan adamın dövlət büdcəsi ilə bir əlaqəsi yoxdursa, deməli, biznesini qurub, halallıqla idarə edir".

Açığı, Rüfət müəllimin açıqlamasında ilk baxışdan həqiqət payı olan cümlələr də var. Lakin həqiqətlə üst-üstə düşməyən və suallar doğuran məqamlar da yetərincədir. Məsələn, o, 60-dan çox ölkədə olduğunu vurğulayıb əlavə edir ki, onların bir çoxunun özü yox, oğlanları, qardaş uşaqları, yaxın və uzaq qohumları bizneslə məşğul olurlar. Quliyev haqlı ola bilər, lakin bir şərtlə: onun sevə-sevə nümunə

Digər tərəfdən, dövlət orqanlarında işləyənlərin əllərində mühüm səlahiyyətlər var. Məmurların bu səlahiyyətlərdən sui-istifadə etməsinin qarşısını almaq üçün bütün dünyada onların bizneslə məşğul olmasına məhdudiyyətlər qoyulub. Azərbaycan qanunvericiliyində də belə müddəalar vəzifə səlahiyyətlərindən şəxsi məqsədlər üçün sui-istifadənin qarşısını almaq naminə nəzərdə tutulub. Lakin hər kəsə məlumdur ki, praktikada bu norma kütləvi şəkildə pozulur. Əksər vəzifə sahibləri bizneslə, sahibkarlıqla məşğuldurlar. Və hər kəsə o da məlumdur ki, onlar bizneslərini öz adlarına rəsmiləşdirmirlər, ailə üzvlərinin, yaxın-uzaq qohumlarının adına sənədləşdirir, faktiki olaraq onlara himayədarlıq edirlər. Rüfət müəllimin bu sadə, hamıya aydın həqiqəti inkar etməyə çalışmasına nə gərək var axı?!

Maraqlı bir məqamı vurğulayaq: biz azmı görmüşük ki, Azərbaycanda bir məmur hansısa vəzifəyə təyin olunduqdan qısa müddət sonra onun biznesi ağlasığmaz miqyasda böyüyür, həmin məmurun ailə şirkətləri az qala bir göz qırpımında nəhəng holdinqlərin belə qibtə edəcək qüdrətə çatır. Ya da tam tərsi baş verir: bir məmur vəzifədən uzaqlaşdırılınca onun biznesinin də çöküşü başlayır, dünənədək qazandığı tenderlər, göz qamaşdıran ailə şirkətləri müflisləşir, batır. İndi sabiq deputatdan acizanə soruşmaq istərdik: sadəcə bu yazdıqlarımız Azərbaycanda məmurlara yaxın şəxslərin biznesinin əslində korrupsiya pulları, əməliyyatları hesabına bəsləndiyini söyləmək üçün yetərli deyilmi?

Rüfət Quliyevin "Əgər deputat, ya məmur özü bizneslə məşğul deyilsə, özünün bu biznesə dəstək verməsi ilə bağlı fakt yoxdursa, burada nə qəbahət var ki?" sözləri isə tənqidə ümumiyyətlə dözmür. Hansı deputat, məmur öz ailə-üzvlərinin, qohum-əqrəbasının biznesinə dəstək verdiyini etiraf edir, boynuna alır ki, biz də faktdan danışırıq? Belə faktlar yalnız həmin deputat, məmur kreslosunu itirdikdən sonra ortaya çıxır. Biz keçmiş vəzifəli şəxslərin son illərdəki həbsləri fonunda bu cür nümunələri çox görmüşük.

Nəticə etibarilə, sabiq deputat sualı "Əgər deputat, ya məmur özü bizneslə məşğul deyilsə, özünün bu biznesə dəstək verməsi ilə bağlı fakt yoxdursa, burada nə qəbahət var ki?" şəklində qoymalı deyil. Sualı belə qoymalıdır ki, niyə hansısa məmurun vəzifəsi azca yüksələn kimi biznesi ağlasığmaz dərəcədə böyüyür? Ya da niyə hansısa məmurun vəzifə karyerası bitən kimi biznesi də batır? Əgər həmin biznes sağlam təməllər üzərində qurulubsa, nə üçün batmalıdır?!

Azərbaycandakı məmur biznesi ilə bağlı müzakirə bu cür sadə məntiqlə aparılmayacaqsa, onda məsələyə digər yanaşmalar daha çox məmur biznesinə haqq qazandırmağa cəhd olaraq qarşılanacaq. Eynilə sabiq deputat və biznesmen Rüfət Quliyevin açıqlaması kimi...

***Toğrul Əliyev***



# 1992-ci il fevralın 26-dan martın 8-dək Xocalıda talanlar davam edib

***Sentyabrın 4-də Bakı Hərbi Məhkəməsində məhkəmə prosesində təqsirləndirilən şəxs Madat Babayanın ibtidai istintaqa verdiyi ifadə elan olunub.***

"Unikal" xəbər verir ki, onun ibtidai istintaqa ifadəsinin bir hissəsi 1992-ci il fevral ayında baş vermiş Xocalı soyqırımı və ondan sonrakı hadisələrlə bağlı olub.

M.Babayan ibtidai istintaqa ifadəsində qeyd edib ki, fevralın 24-də Arkadi Şirinyan həmin vaxt 3 bölüyün qarşısında çıxış edərək növbəti gün, yəni 1992-ci il fevralın 25-də gecə radələrində hücuma keçərək Xocalıda yaşayan azərbaycanlı dinc əhaliyə qarşı qətliam törədəcəklərini bildirib. Onlar komandir Arkadi Şirinyanın əmrinə uyğun olaraq hazırlıq görməyə başlayıblar.

Hücuma keçməzdən əvvəl Xocalı şəhəri Xankəndi istiqamətində olan yüksək dağlıq ərazidə yerləşən artileriya və reaktiv yaylım atəş sistemlərinin yerləşdiyi mövqelərdən top, minatan və digər təyinatlı mərmilərlə aramsız atəşə tutulub. Təxminən 30-40 dəqiqə davam edən aramsız artileriya, minaatan və "BM-21-QRAD" sistemlərinin atəşlərindən sonra onlar fevralın 25-dən 26-na keçən gecə saat 24 radələrində Xocalı şəhərinə daxil olubar. Şəhərə daxil olduqdan sonra hər iki tərəfdən avtomat, pulemyot, qumbaratanlardan istifadə edilməklə Xocalıda qarşılarına çıxan dinc əhaliyə atəş açmağa, evləri yandırmağa başlayıblar. Bəzi sakinlər ayaqları yalın, qucaqlarında körpə uşaqlarla birlikdə Xocalı şəhərinin yaxınlığından keçən Qarqar çayını keçərək yaxınlıqdakı dağlara doğru və Ağdam rayonunun Şelli kəndi istiqamətində qaçıblar. Qaçan şəxslər əvvəlcədən şəhərin ətrafında postlar quraraq qaçan əhaliyə atəş açıb öldürmək üçün orada gözləyən digər erməni silahlı qüvvələri tərəfindən güllələnib. Xocalı şəhərində evlər talanıb, yandırılıb, qadınlar zorlanıb, insanlar çoxsaylı işgəncələrə məruz qalıb, tank və döyüş maşınları insanların üzərindən keçərək onları əzmişdir. M.Babayan da həmin vaxt əmrə əsasən qadın, kişi, qoca, yaşlı demədən avtomatla hamıya aramsız atəş açıb. Arkadi Şirinyan və digər komandirlər əmr ediblər ki, orada xüsusi vəhşiliklər törədilsin. Ümumiyyətlə Xocalı şəhəri uzun müddət mühasirədə olduğundan sakinlər şəhərdən çıxa bilməyib, hücum zamanı da çox az sayda insan oradan çıxaraq xilas ola bilib.

Təqsirləndirilən şəxs bildirib ki, 1992-ci il fevralın 26-dan martın 8-dək Xocalıda talanlar davam edib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 9





## Rusiyadan Azərbaycan - Ermənistan sazişinə reaksiya

***Rusiya baş nazirinin müavini Aleksey Overçuk Ermənistan və Azərbaycan arasında imzalanmış sazişdən danışıb.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

Diplomatın sözlərinə görə, Rusiya bu məsələyə nikbin yanaşır: "Biz Ermənistan və Azərbaycan arasında ilkin razılaşmaya ehtiyatlı nikbinliklə baxırıq. Bu, həm də böyük Avrasiya regionumuzda sülhün möhkəmlənməsinə mühüm töhfədir".

***Ağarza Elçinoğlu***

## Erməni səfirin qardaşı saxlanıldı

***Keçmiş nazir və Ermənistanın ABŞ-dəki hazırkı səfiri Narek Mkrtçyanın qardaşı Mkrtç Mkrtçyan gecə saatlarında saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan KİV məlumat yayıb. O, narkotik saxlamaqda şübhəli bilinir.

***Gülayə Mecid***

## Overçuk Azərbaycanla iqtisadi əlaqələrdən danışdı

***İqtisadiyyatda Rusiya ilə Azərbaycan arasında münasibətlər çox yaxşı inkişaf edir və ŞƏT sammitində tərəfdaşlarla fəal təmaslar olub.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Federasiyası baş nazirinin müavini Aleksey Overçuk deyib.

"İqtisadi sahədə əlaqələr çox yaxşı inkişaf edir. Biz daim əlaqə saxlayırıq, o cümlədən ŞƏT sammiti çərçivəsində tərəfdaşlarla fəal ünsiyyət qururuq.

Ona görə də Azərbaycanla iqtisadi əlaqələr planlaşdırıldığı kimi normal inkişaf edir", - Overçuk bildirib.

***Ağarza Elçinoğlu***

## "Tarixdən heç nə öyrənməyən ölkələr var" - Zaxarova

***"Bəzi ölkələr, o cümlədən Almaniya tarixdən dərs ala bilmir".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib.

"Tarixdən heç nə öyrənməyən ölkələr var. Belə sınaqlardan keçmiş Almaniyadan üzr istəyirəm", - diplomat vurğulayıb.

O qeyd edib ki, Almaniya kansleri Fridrix Merz və Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen öz sələflərinin səhvlərini təkrarlayırlar. Xatırladaq ki, Merz avqustun 31-də Rusiya Federasiyasına sanksiya təzyiqini artırmağa çağırıb.

***Gülayə Mecid***

# Daha bir icra başçısı ittiham hədəfində

## Sabiq icra başçısı həbs edilən rayonun yeni rəhbəri ilə bağlı da tənqidlər səngimir

***Son günlər mətbuatda və sosial şəbəkələrdə Cəlilabad Rayon İcra Hakimiyyətinin rəhbərliyi ilə bağlı tənqidlər intensivləşib. Bu rayondan gələn şikayətlərdə əhalinin sosial-iqtisadi vəziyyətindən tutmuş təhsil, səhiyyə kimi sahələrdə problemlərin yığılıb qalmasından giley-güzar olunur. Rayon İcra Hakimiyyətinin keçirdiyi tenderlərlə bağlı şübhələr də müzakirə mövzusudur.***

Yuxarıdakı tənqidlər fonunda Cəlilabad şəhərində yolların əsaslı təmiri ilə bağlı tenderin açıqlanan nəticələri də medianın diqqətindən yayınmayıb. KİV yazır ki, müsabiqənin qalibi "Elnur-2" Universal İstehsalat Kommersiya Şirkəti olub.



Rəsmi qaynaqlarda qeyd edilir ki, yolların əsaslı təmiri 157 min 609 manata başa gələcək.

"Qaynarinfo" yazıb ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "Elnur-2" şirkəti 11 fevral 1994-cü il tarixdə dövlət qeydiyyatına alınıb. Hüquqi ünvanı Bakı şəhəri, Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi, ev 11/35, mənzil 57 olan şirkətin qanuni təmsilçisi Abıyev Zaur Niyaz oğludur. Şirkətin nizamnamə kapitalı isə 1 manat 60 qəpikdir.

Açıq mənbələrdə "Elnur-2" şirkəti barədə hər hansı məlumat yoxdur. Zaur Abıyevin adı isə "MTN işi"ndə keçir. İş materiallarından aydın olur ki, Zaur Abıyev də MTN-dəki məlum dəstənin hədəfinə gəlib.

Başqa bir ilginc məqam isə ondan ibarətdir ki, adı çəkilən şirkətin nizamnamə kapitalının cəmi-cümlətanı 1,6 manat olduğuna dair də xəbərlər yayılıb. Təkcə Cəlilabad rayonunda milyonlarla manatlıq tenderlər udan şirkətin bu qədər cüzi məbləğdə nizamnamə kapitalının olması yetərincə sual doğurur. Əlbəttə, əgər həmin rəqm doğrudursa!

O da bildirilir ki, "Elnur-2" Universal İstehsalat Kommersiya Şirkətinin hazırda 4 885,85 manat vergi borcu var. Şirkət cari ildə 4 tenderin qalibi seçilib.

"Tribunainfo"nun yazdığına görə isə açıq mənbələr üzərindən aparılan araşdırma nəticəsində məlum olub ki, son bir ildə Cəlilabad İcra Hakimiyyəti ilə "Elnur-2" şirkəti arasında 5 belə anlaşma olub. Onlardan biri bu yaxınlarda, 19 avqustda qeydə alınıb. Cəlilabad şəhərində yolların əsaslı təmiri üçün şirkət 423 min 594 manat pul alıb.

Bundan başqa, ötən ilin sentyabrında "Elnur-2" şirkəti Cəlilabadın Göytəpə şəhərinin də yollarını əsaslı təmir edib. Həmin tenderin müqabilində isə İcra Hakimiyyətindən 110 min 507 manat pul alıb.

Maraqlı məqamlardan biri də odur ki, Cəlilabad İcra Hakimiyyəti ötən il "Elnur-2" ilə bir ayın içində bütün anlaşmaları reallaşdırıb. Məsələn, dəyəri 419 min 674 manat olan Cəlilabad şəhərində yolların əsaslı təmiri prosesi 09.09.2024-cü ildə baş tutub. Həmçinin 04.09.2024-cü ildə 176 min 289 manatlıq layihə olan Cəlilabad və Göytəpə şəhərlərində yolların əsaslı təmiri işləri baş tutub.

Qeyd edək ki, Cəlilabadda yalnız bir şirkətin tenderlərin qalibi olması müəyyən ehtimallara səbəb olub. Bəzi açıq mənbələrdə rayonun icra başçısı Rafiq Cəlilovla sözügedən şirkət arasında yaxşı münasibətlərin olması iddia edilir. Lakin nə şirkət, nə də yerli icra hakimiyyəti irəli sürülən iddialara indiyədək hər hansı münasibət bildirməyib.

Xatırladaq ki, Cəlilov 2021-ci ildən rayona rəhbərlik edir.

Onun sələfi Namiq Zeynalov 2021-ci ilin dekabr ayında Cəlilabad Rayon İcra Hakimiyyətində keçirilən xüsusi əməliyyat zamanı saxlanılıb. Zeynalova Cinayət Məcəlləsinin 179.2.2 (Mənimsəmə və ya israf etmə təkrar törədildikdə) 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə); 179.2.4 (xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (külli miqdarda rüşvət alma), 311.3.2 (təkrar rüşvət alma), 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə ona 12 il həbs cəzası verilib. Bundan başqa, iş üzrə üzərinə həbs qoyulmuş ümumi dəyəri 2 milyona yaxın olan fərdi yaşayış evləri, "Lexus" markalı minik avtomobili, müxtəlif təyinatlı torpaq sahələri dövlət nəfinə müsadirə edilib.

2023-cü ildə Şirvan Apellyasiya Məhkəməsində keçirilən iclasda Namiq Zeynalovun cəzası 11 il 9 aya endirilib.

Zeynalovdan sonra icra başçısı təyin olunan Rafiq Cəlilovun bu vəzifəyə gəlişi ilə ümidlər yaranmışdı ki, Cəlilabadda illərdir yığılıb qalan çox sayda sosial-iqtisadi problemlərin həlli, rüşvət, korrupsiya kimi neqativ halların aradan qaldırılması istiqamətində əməli işlər görüləcək. Lakin rayondan gələn şikayətlər, mənfi yüklü xəbərlər həmin ümidlərin doğrulacağını söyləməyə əsas vermir.

***Sənan Mirzə***

# Məmurların ağlasığmaz oyunu

## Həftənin araşdırması: vətəndaşlardan xəbərsiz onların adına necə şirkət açılır? - Tükürpədici faktlar!



***Bu günlərdə məlum olub ki, İsmayıllı sakini Elçin Babayevin xəbəri olmadan adına şirkət açılıb. Üstəlik, külli miqdarda vergi borcu yaranıb. Babayev iddia edib ki, xəbəri olmadan 2021-ci ildə adına "Dərya MMC - ADOFROREL" adlı şirkət açılıb. Məsələdən yalnız bu yaxınlarda həmin şirkətin adına yığılan 29 min 700 manatlıq vergi borcu barədə rəsmi bildiriş gələndə xəbər tutub.***

Fəhlə işlədiyini və aylıq gəlirinin çox aşağı olduğunu deyən vətəndaş məsələ ilə bağlı ciddi narahatlıq keçirir.

Məsələ ilə bağlı qeyd olunan "Dərya MMC - ADOFROREL" şirkəti ilə əlaqə saxlamaq mümkün olmayıb - şirkətdən zənglərimizə cavab verilməyib. Dövlət Vergi Xidmətinin 10 saylı ərazi üzrə vergilər idarəsinin İsmayıllı rayon şöbəsindən isə bildirilib ki, sistemdə vətəndaşın adında borc olduğu üçün Öhdəliklərin idarəedilməsi baş idarəsindən ona vergi borcu haqqında sənəd göndərilib.

Qeyd edək ki, son illərdə oxşar şikayətlərin sayı xeyli çoxalıb. Bir neçə ay öncə Ağdaş sakini Müşviq Cəbrayılzadə iddia edib ki, onu aldadıb əvvəlcə adına VÖEN hesabı açıblar, sonra isə həmin şəxsi 3 şirkətin qanuni nümayəndəsi təyin ediblər. Açılan şirkətlərdə işlə təmin olunacağı vədi verilsə də, sonda məlum olub ki, o, nəinki işlə təmin olunub, əksinə, fəaliyyət göstərən şirkətlərdən onun adına ümumilikdə külli miqdar vergi borcu yazılıb.

Bundan sonra isə Müşviq Cəbrayılzadəyə verilən məvacibin arası kəsilir:

Fırıldaqçıların qurbanına çevrilmiş digər bir şəxs - Mircəfər Mirqədirov isə iddia edib ki, eyni üsulla aldadılıb və hazırda 44.490 manat vergi borcu var.

Bu ilin iyununda Göyçayın Ərəbşahverdi kənd sakini Elməddin Məmmədovun başına da oxşar iş gəlib. Məlum olub ki, onun adına özünün də xəbəri olmadan şirkət açılıb, nəticədə 17 min manata yaxın vergi borcu var. Belə ki, iki il əvvəl Bakıda iş axtararkən bir nəfər ona yaxınlaşıb. Elməddinə yaxşı iş vədi verib və onu başqa bir şəxslə tanış edib. Elə hər şeydə bundan sonra baş verib.

Elməddin Məmmədovun sözlərinə görə, bir müddət əvvəl isə ona məktub gəlib ki, 17 min manata yaxın vergi borcu var.

Belə nümunələr kifayət qədərdir. Hüquqşünaslar da bildirirlər ki, vətəndaşın aldadılaraq adına hansısa şirkətin təsis və həmin şirkətdən qanunsuz məqsədlər üçün istifadə edilməsi halları son illər həddsiz dərəcədə artıb. Bunda məqsəd isə müxtəlifdir: vergidən yayınma, pul vəsaitlərinin qanunsuz köçürülməsi, nağdlaşdırılması və s.

Hüquqşünaslar bildirirlər ki, vətəndaşlar aldadıldığını bildikdən dərhal sonra ilk növbədə başqalarına verdikləri etibarnaməni və adına açılmış ASAN imza sertifikatını ləğv etdirməli, ardınca da məsələnin ətraflı araşdırılması üçün hüquq-mühafizə orqanlarına üz tutmalıdırlar. Araşdırma zamanı vətəndaşın həqiqətən də aldadıldığı, yəni onun adından açılan şirkətdən xəbərinin və törədilən qanunsuz əməllərdə iştirakının olmaması müəyyən edildiyi halda, hər hansı hüquqi məsuliyyət daşımır. Bütün hüquqi məsuliyyət şirkəti faktiki idarə etmiş şəxslərin üzərinə düşür.

Ən maraqlı məqam ondan ibarətdir ki, bəzi məmurların da öz şəxsi bizneslərini kimlərinsə adına həmin şəxslərdən xəbərsiz şəkildə rəsmiləşdirdiyinə dair faktlar var. Məsələn, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun məhkəməsində məlum olmuşdu ki, bir nəfərin adına 7 şirkət açılıb, 7 şirkəti olan həmin şəxs isə əslində ayda 700 manat maaş alan sıravi işçi olub. Şahid qismində dindirilən Anar Rəhimov deyib ki, "rəhbəri" olduğu şirkətlərlə Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə arasında satınalmalar üzrə müxtəlif müqavilələr imzalanıb: "Bunun problem olacağını 2016-cı ildən sonra başa düşdüm. Ona görə adımda olan bütün şirkətləri çıxartdım. Pulları nazirliyin nümayəndəsi olan Dəyanətə verirdim. Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binasında isə təxminən 10 dəfə olmuşam".

Yaxud "Baku Steel Company" MMC-nin (poladəritmə zavodu) keçmiş rəhbəri Rasim Məmmədovla bağlı məhkəmə prosesində onlarla saxta şirkətlərin yaradılması, o şirkətlərin hesabına vəsaitlərin köçürülməsi və nağdlaşdırılıb geri qaytarılması halları üzə çıxmışdı. Bu barədə Natiq Həşimov öz ifadəsində danışmışdı. O bildirmişdi ki, pulları çıxarıb "Azeri Steel 2009" MMC-nin mühasibinə verib. Şahidin dediklərindən aydınlaşıb ki, zavoda dəmir qırıntıları təhvil verib, buna görə pul alıb. Sonradan onun adına olan şirkətlər haqqında öyrənib, məlum olub ki, həmin şirkətlər pal-paltar gətirib satmaq məqsədilə yaradılıb: "Şirkətlərə dəmirin pulu köçürülürdü, onu çıxarıb başqalarına verirdi. Həmin şirkətlərin necə yaradıldığını bilmirəm. Bilmirəm kim açıb mənim adıma...".

Belə nümunələrin sayını bəs deyincə artırmaq olar. Bir sözlə, vətəndaşlardan xəbərsiz yaradılan, xeyrini başqalarının görüb əziyyətini isə həmin vətəndaşların çəkdiyi şirkətlərin arxasında ya hansısa məmurun, ya da biznesmenin maraqları dayanır. Üstəlik, problem artıq o qədər böyüyüb ki, aidiyyatı qurumların hərəkətə keçməsi, özü də formal addımlar atmaqla kifayətlənməyib təsirli, effektiv tədbirlər görməsi hava-su qədər vacibdir...

***Toğrul Əliyev***

# Azərbaycanda kirayə mənzillərin qiymәti bahalaşır



***"Tələbə axını olduğu üçün müraciətlərin sayı artıb. Müraciətlərin sayının artması isə qiymətə təsir göstərir. Həmçinin burada psixoloji faktor var. Mülkiyyətçi düşünür ki, müraciət edənlərin sayı artdıqca, qiyməti yüksəltmək lazımdır".***

Bunu "Unikal"a açıqlamasında əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı deyib. Onun sözlərinə görə, ötən illə müqayisədə kirayə mənzillərin qiymətində ən azı 15 faiz artım var: "Şəhərin mərkəz hissələrində artım daha çoxdur. Mənzil bahalaşdıqca, onun kirayə dəyəri də artır. Məsələn, şəhərin mərkəzində 1 otaqlı mənzilin kirayə haqqı 1000 manatdan yüksəkdir. Bu qiymətə olan mənzildə 15 faiz artım 150 manat edir".

R.Osmanlı bildirib ki, son illər əmlak bazarında iki istiqamət üzrə ciddi şəkildə dəyişiklik müşahidə olunur: "Köhnə mənzil fondu sürətlə azalır, sıradan çıxır. Köhnə binaların sökülməsi nəticəsində ucuz mənzillər üzrə təklif portfeli məhdudlaşır. Şəhərin mərkəzində və ona yaxın ərazilərdə yerləşən ikimərtəbəli yaşayış massivlərindən ibarət yaşayış sahələri sökülür. Hansı ki, 2,3 və ya 4 nəfər bir evdə kirayədə qalırdı, o qədər də üzərlərinə yük düşmürdü. Belə ki, həyət evləri idi və ucuz qiymətə təklif olunurdu. Onların yerində bazara yeni tikililər daxi olur. Təbii ki, yeni tikililərin qiyməti yüksəkdir".

Ekspert qeyd edib ki, qiymətin bahalaşması əmlakın gəlirliliyinə təsir göstərir:

"Məsələn, 100 minlik əmlakla 200 min qiyməti olanın gəlirlik dərəcəsi eyni ola bilməz. Bu da qiymət artımına təsir göstərir. Digər tərəfdən bu söküntülər nəticəsində əmlak bazarında müəyyən dövrlər üçün kirayə tələbi formalaşır. Məsələn, bir ərazi sökülür, orada yaşayan 2500 mülkiyyətçiyə kirayə mənzil haqqı verilir. Onların müəyyən hissəsi də tələbi artırır. Bu faktorlar məhdud təklif fonunda tələbin və qiymətin artımına təsir göstərir".

***Anar Kəlbiyev***

# Bakı məktəblərində kağız jurnallar ləğv edilir



***"Yeni tədris ilindən etibarən Bakı şəhərində yerləşən ümumtəhsil müəssisələrində kağız jurnallardan istifadə edilməyəcək, bütün proseslər yalnız "Rəqəmsal məktəb" platforması üzərindən aparılacaq".***

"Unikal" "Azərbaycan müəllimi"nə istinadən xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Keyfiyyətə nəzarət və monitorinq sektorunun müdiri Fidan Nəcəfova Bakı şəhəri üzrə təhsil işçilərinin sentyabr konfransında deyib.

Onun sözlərinə görə, cari ilin yanvar-fevral aylarından etibarən platformanın tətbiqi istiqamətində işlərə başlanılıb və bu müddət ərzində sistemin təkmilləşdirilməsi aparılıb. Artıq direktorların 98%-i, müəllimlərin isə 93%-i platformada qeydiyyatdan keçib. Bu həftənin sonunadək bütün direktor və müəllimlərin qeydiyyatının tam başa çatdırılması ilə bağlı tapşırıq verilib.

Fidan Nəcəfova əlavə edib ki, məktəb direktorları üçün platformadan qeydiyyat və öhdəliklərlə bağlı təlimlər təşkil olunacaq. Onun sözlərinə görə, "Rəqəmsal məktəb" platformasından istifadə müəllim və məktəb rəhbərliyinin iş yükünün azaldılmasına xidmət edəcək. O həmçinin qeyd edib ki, hazırda valideynlərin qeydiyyat göstəricisi 62-65% civarındadır. Bu göstəricinin yüksəldilməsi istiqamətində işlərin görülməsinin vacibliyini vurğulayıb.

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 11





# Bu qidalar xərçəng riskini azalda bilər

***Heyvani mənşəli zülal tərkibli qidalar xərçəngə qarşı qoruyucu təsir göstərə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

Tədqiqatda 19 yaşdan yuxarı təxminən 16 min nəfərin məlumatları analiz edilib. Alimlər onların rasionunda heyvani və bitki mənşəli zülalların miqdarını, həmçinin ürək-damar xəstəlikləri və xərçəng riski ilə əlaqəsini öyrəniblər. Nəticələr göstərib ki, daha çox ət istehlak edən insanlar arasında onkoloji xəstəliklərdən ölüm göstəricisi əhəmiyyətli dərəcədə aşağıdır. "Əgər bu müşahidə və klinik araşdırmaların nəticələrini nəzərə alsaq, aydın olur ki, həm heyvani, həm də bitki mənşəli zülal tərkibli məhsullar sağlamlığa və uzunömürlülüyə töhfə verir", - deyə araşdırmada bildirilir.

# Rezidenturaya boş qalan plan yerlərinə qəbulun nəticələri elan edilib

***Rezidenturaya boş qalan plan yerlərinə qəbulun nəticələri elan edilib. Bu barədə "Unikal"a DİM-dən məlumat verilib.***

Bildiirlib ki, namizədlər müsabiqənin nəticələri haqqında məlumatı DİM-in internet saytından və ya mobil operatorlar (Azercell, Bakcell, Nar) vasitəsilə "iş nömrəsi"nin sonuna "9" rəqəmini əlavə etməklə alınan 7 rəqəmli kodu 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər.

Müsabiqədə 2 namizəd iştirak edib və rezidenturaya qəbul olunub.

Rezidenturaya qəbul olmuş namizədlər 5 - 10 sentyabr (18:00-dək) 2025-ci il tarixlərində portal.edu.az platformasında qeydiyyatdan keçməli və yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlər sırasında "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməlidirlər.

Əlavə məlumat Səhiyyə Nazirliyindən veriləcək.

Rezidenturaya qəbul olanların bu müddətdə qeydiyyatdan keçməməsi onların yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtinası kimi qiymətləndiriləcək və onlar qəbul olanlar siyahısından çıxarılacaqdır.

Qəbul olunanların siyahısı:

| İş nömrəsi | Topladığı bal | Qəbul olduğu ixtisasın kodu |
|---|---|---|
| 270652 | 51 | 329138 |
| 269603 | 53 | 311163 |

# Hədə ilə pul tələb edən qadın tutuldu

***Bakının Nəsimi rayonunda polis əməkdaşları tərəfindən keçirilən tədbir zamanı paytaxt sakininə hədə-qorxu gələrək pulunu ələ keçirməkdə şübhəli bilinən 26 yaşlı L.Qəhrəmanova tutulub.***

"Unikal" xəbər verir ki, bu barədə DİN məlumat yayıb. Bildirilib ki, Nərimanov və Binəqədi rayonlarında isə iki nəfərə məxsus ümumilikdə 3500 manat dəyərində moped və mobil telefon oğurlanması barədə polisə məlumat daxil olub. Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə qeyd olunan əməlləri törətməkdə şübhəli bilinən B.Hənifəyev və N.Abdullayev saxlanılıblar. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Töhmət verilmiş icra başçısını gözləyən böyük təhlükə

## İlyarımdır Ağdaşa rəhbərlik edən Orxan Hüseynzadə etimadı doğrultmur - Bundan sonra nə olacaq?

***Xəbər verildiyi kimi, ötən ayın sonunda Prezident İlham Əliyev Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Rüfət oğlu Hüseynzadəyə işində yol verdiyi ciddi nöqsanlara görə şiddətli töhmət verib.***

"Unikal"ın xəbərinə görə Ağdaş Rayon İcra Hakimiyyətində yoxlama aparılıb. Yoxlama zamanı ciddi nöqsanlar aşkar edilib.

Həmçinin məlum olub ki, O.Hüseynzadə icra başçısı təyin edilən zaman (01.11.2024) özü ilə 5 nəfəri də Ağdaşa apararaq onlara İcra Hakimiyyətində müxtəlif vəzifələr verib. Bütün işləri sözügedən məmurlar aparıb, bu da etiraza səbəb olub. O.Hüseynzadə həmin məmurları dünən işdən azad edib.

İşdən çıxarılan şəxslərdən üçünün adı məlum olub:

Quliyev Elvin - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi,

Bayramov Şahin - Memarlıq və tikinti şöbəsinin böyük məsləhətçisi,

Quliyev Samir - Tofiqi Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə.



Qeyd edək ki, O.Hüseynzadə açıqlama verərək şiddətli töhmət almasına münasibət bildirib: "Cənab Prezident həmişə haqlıdır, mənimlə bağlı qərarında da haqlıdır. Mənimlə bağlı sərəncamı da qəbul edirəm, başqa cür də ola bilməz. İş olan yerdə nöqsan da olur. Mən çalışacağam ki, bu nöqsanlardan nəticə çıxarım və cənab Prezidentin etimadını doğruldum".

Lakin icra başçısı cəmi ilyarımdır tutduğu posta şiddətli töhmət almasına gətirib çıxaracaq nöqsanlara yol verməyi necə "bacardığından" danışmayıb. Üstəlik, ilyarımda ölkə rəhbərliyinin etimadını doğrultmadığı halda gələcəkdə buna necə nail olacağını da açıqlamayıb. Bəlkə də, ona görə ki, heç özü də bilmir...

Ən maraqlısı odur ki, şiddətli töhmət almasının ardından Orxan Hüseynzadənin rəhbərlik etdiyi rayonda tenderlərlə bağlı müəmmalı məqamlar üzə çıxıb. Məlum olub ki, "tender kralı" kimi tanınan ATF MMC rayonda daha bir satınalma müsabiqəsinin qalibi seçilib. Qaynarinfonun məlumatına görə, budəfəki müsabiqəni Ağdaş Rayon İcra Hakimiyyəti keçirib. Satınalma predmeti Ağdaş şəhərində küçələrin asfalt örtüyünün əsaslı təmiridir. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 155 364,53 manatdır. Üstəlik, şirkət cari ildə ikinci dəfədir ki, Ağdaş Rayon İcra Hakimiyyətinin keçirdiyi tenderin qalibi olur. ATF MMC bundan əvvəl aprel ayında qurumun Ağdaş şəhər İqbal Rzayev, F.Səfərov, Ərəş, Mirzalı Əliyev, M.Ə.Rəsulzadə və Sönməz Məmmədov küçələrində aparılacaq əsaslı təmir işləri ilə bağlı keçirilən tenderin qalibi seçilib. Bu tender üzrə satınalma predmetinin qiyməti 397 547,43 manat olub.

Azad, Təbriz və Fəxrəddin Muradov qardaşlarına məxsus ATF şirkəti 23 dekabr 2003-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 20 manatdır. Şirkətin hüquqi ünvanı Göyçay rayonunun Çayarxı kəndində yerləşir. MMC-nin qanuni təmsilçisi isə Muradov Təbriz Əzim oğludur. Şirkətin adı qardaşların adının baş hərflərindən götürülüb.

ATF MMC haqqında açıq mənbələrdə heç bir məlumat yoxdur. Bu baxımdan, demək olar ki, eyni vaxtda bir neçə rayonda yol təmiri ilə bağlı tenderin qalibi olan bu şirkətin maddi-texniki bazasının hansı səviyyədə olduğu bəlli deyil.

Daha bir maraqlı məqam: bu ilin fevralında Ağdaş Rayon İcra Hakimiyyətinin Ağdaş rayon küçələrində bir sıra işlərin görülməsi ilə bağlı elan etdiyi tender ləğv olunub. Tenderin ümumi məbləği 569 641 AZN olub. Ləğvetmənin səbəbi açıqlanmayıb. Lakin qərarı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qəbul etməsi maraq doğurur və icra başçısı şiddətli töhmət alan rayonda satınalma müsabiqələrinin obyektivliyi ilə bağlı sualları qüvvətləndirir.

Onu da deyək ki, ötən il Ağdaş rayon İcra Hakimiyyətinin Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Ağdaş rayonu ərazisindən keçən hissəsində yol kənarında aparılacaq abadlıq işlərinin satınalınması üzrə bir mənbədən satınalma metodu ilə keçirdiyi açıq tender mətbuatda müzakirə mövzusuna çevrilmişdi. Həmin vaxt KİV yazırdı ki, rayon rəhbərliyi "Simmetriya" Məhdud Məsuliyyətli Cəmiyyətini qalib seçib və 29.08.2024-cü ildə 602.988,26 manat məbləğində satınalma müqaviləsi bağlayıb. O da bildirilirdi ki, "Ağdaş rayon İcra Hakimiyyətinin Satınalma Komissiyası "Dövlət Satınalmaları Haqqında" Qanunun tələblərini elə bir mənbədən satınalma metodu ilə keçirdikdə pozub. Sözügedən qanunun 49-cu maddəsinə görə: 49.1.1. satınalma predmeti yalnız hər hansı konkret təchizatçıda olduqda və ya hər hansı konkret təchizatçı həmin satınalma predmeti üzərində xüsusi hüquqlara malik olduqda və satınalma predmetinin əvəzedicisi və alternativi olmadıqda; 49.1.2. satınalma predmetinə təcili tələbat yarandıqda. Göründüyü kimi Ağdaş rayon İcra Hakimiyyəti analoji işlərin aparılmasında heç bir xüsusi hüquqlara malik olmayan MMC ilə satınalma müqaviləsi bağlayıb ki, bu da əsaslı şübhələrə yol açır. Digər tərəfdən, ""Lisenziyalar və İcazələr haqqında Azərbaycan Respublikası Qanununun 8.1 maddəsinə uygun olaraq İqtisadiyyat Nazirliyi tərəfindən aparılan lisenziyaların və icazələrin vahid reyestrində MMC -nin tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri üzrə lisenziya alması barədə məlumat yoxdur. Ağdaşın əvvəlki icra başçısı Tofiq İbrahimovun vəzifəsindən azad edilməsində bir çox nöqsanlarla yanaşı bu cür şübhəli tenderlərin də rolu olduğu istisna deyil.

Belə davam edərsə, onun xələfi Hüseynzadəni də yaxşı günlər gözləmir. 42 yaşlı icra başçısı lazımi nəticə çıxarmasa, yəqin ki, şiddətli töhmətdən sonrakı cəzası daha ağır olacaq. Unutmayaq ki, hazırda işində yol verdiyi ciddi nöqsanlara görə bir çox sabiq icra başçısı həbsdədir...

**Sənan Mirzə**

## 6.3.16. Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Təhsil Tələbə Krediti ilə təhsil daha əlçatan olub

## Bu ildən SAT imtahanı ilə ali məktəbə qəbul olanlar da təhsil tələbə kreditindən yararlana biləcəklər



***Ölkəmizdə ali və orta ixtisas təhsilində keyfiyyətin artırılması ilə yanaşı, təhsilin bu pillələrinə əlçatanlığın təmin edilməsi də son illər dövlətin prioritet istiqamətlərindəndir. Buna nümunə olaraq 2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinə ayrılmış plan yerlərinin sayının artırılmasını göstərmək yerinə düşər.***

Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadənin açıqlamasına görə, bu tədris ili üzrə ümumi plan yerləri 1309 yer və ya 2.21% artaraq 59 180-dən 60 489-a yüksəlib.

I ixtisas qrupu üzrə plan yerləri 2024-cü ildə 19 990 olduğu halda, 2025-ci ildə bu rəqəm 20 445 olub (artım 455 yer, 2.28%). II ixtisas qrupu üzrə 14 550-dən 14 935-ə yüksəlib (artım 385 yer, 2.65%). III ixtisas qrupu üzrə 15 459-dan 15 583-ə qalxıb (artım 124 yer, 0.80%). IV ixtisas qrupu üzrə plan yerləri 4618-dən 4732-yə yüksəlib (artım 114 yer, 2.47%). V ixtisas qrupu üzrə isə 4563-dən 4794-ə artıb (artım 231 yer, 5.06%).

Bununla yanaşı, 2025-ci il üzrə plan yerlərinin 28 401-i dövlət sifarişi əsasında ayrılıb ki, bu da ötən illə müqayisədə 2.04% artım deməkdir. Bu artım təkcə ali təhsili əhatə etmir. Orta ixtisas təhsili müəssisələrinə qəbul planı da artıb. 11 illik təhsil bazasında qəbul 2024-cü ildə 12 387 nəfər olduğu halda, 2025-ci ildə bu rəqəm 15 874-ə yüksəlib (artım 3 487 nəfər). Amma dövlətin ali və orta ixtisas təhsilinə əlçatanlığın artırılması yönündə gördüyü işlər bununla da bitmir.

Ölkəmizdə ali və orta ixtisas təhsilin ödənişli əsaslarla forması üzrə də dövlət əlçatanlığını təmin etmək üçün tələbələrə böyük imkanlar və fürsətlər yaradır.

Belə ki, illər öncə ödənişli əsaslarla təhsil almaq maddi baxımdan imkansız ailələr üçün əksər hallarda müşkül idisə, hazırda dövlət yeni təhsil proqramları hazırlayaraq gənclərin ödənişli təhsil almasına da şərait yaradır. Ölkəmizdə yaradılan Təhsil Tələbə Kredit Fondu bu tədris ilindən bu imkanları daha da genişləndirib. Söhbət Təhsil Tələbə Krediti Fondunun Himayəçilik Şurasının avqust ayında keçirilmiş iclasında orta ixtisas və ali təhsil pillələrinə yeni qəbul olmuş tələbələrə dair qəbul edilmiş mühüm qərarlardan gedir.

"Unikal" qəzeti bu imkanların nələrdən ibarət olduğunu araşdırıb. Fonddan sorğumuza cavabda bildirilib ki, indiyədək standart növ təhsil tələbə kreditindən yararlanmaq üçün orta ixtisas təhsili müəssisələrində subbakalavriat səviyyəsində abituriyentin topladığı balın minimum həddi 110 idi. Yeni qərara əsasən, orta ixtisas təhsili pilləsinin subbakalavriat səviyyəsində xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olan tələbələr üçün birinci tədris ilinin ilk semestrində tələb olunan minimal bal həddi 40 bal olaraq müəyyən edilib.

Üstəlik, bu minimal bal tələbi yalnız standart növ təhsil tələbə kreditindən yararlanmaq istəyənlərə şamil olunur. Sosial növ təhsil tələbə kreditində isə belə bir bal limiti mövcud deyil.

Digər vacib yenilik Sxolastik Qiymətləndirmə Testi (Scholastic Aptitude/Assessment Test - SAT) imtahanı nəticələri ilə ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrlə bağlıdır. Belə ki, bu tələbələrə də birinci tədris ilinin ilk semestrində standart tələbə krediti almaq imkanı yaradılıb. SAT imtahanı üzrə minimal bal həddi 1200 bal olaraq təsdiqlənib.

Qəbul edilən qərarlar tələbələrin təhsil imkanlarının genişləndirilməsi, sosial bərabərliyin təmin olunması və daha çox gəncin təhsilə cəlb olunması baxımından çox əhəmiyyətlidir.

Fonddan onu da bildirdilər ki, artıq ödənişli əsaslarla ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olunmuş abituriyentlər 2025-2026-cı tədris ilinin payız semestri üçün 28 avqust - 8 sentyabr tarixlərində portal.edu.az platforması üzərindən təhsil qeydiyyatını həyata keçirdikləri zaman, paralel olaraq www.e-ttkf.edu.az portalı vasitəsilə təhsil tələbə krediti üçün müraciət edə bilərlər. Bu dövrdə müraciət sayının çoxluğunu nəzərə alaraq, təhsil tələbə kreditlərinə müraciət edən şəxslərə operativ dəstək göstərmək məqsədilə Fond tərəfindən yardım masası yaradılıb.

Qeyd edək ki, Təhsil Tələbə Krediti Fondu 2021-ci ilin 17 iyun tarixində prezident İlham Əliyevin imzaladığı 1367 nömrəli Fərmanla yaradılıbdır.

Bu Fondun əsas məqsədi ölkəmizdə təhsil alan gənclərin sosial rifahının yüksəldilməsi, təhsilə çıxış imkanlarının genişləndirilməsi və maliyyə imkanlarının məhdudluğu səbəbilə ali təhsildən kənarda qalan tələbələrin dəstəklənməsidir. Digər ölkələrin təcrübələrindən fərqli olaraq, Azərbaycan modelində təhsil tələbə kreditinin daha aşağı faiz dərəcəsi, daha uzunmüddətli geri ödəniş dövrü və tələbəyönümlü sosial yanaşması ilə seçilərək, region üçün nümunəvi bir sistemə çevrilib.

Fondun fəaliyyətinin əsas prinsiplərindən biri təhsil almaq istəyən, lakin maliyyə baxımından çətinlik çəkən tələbələrə dəstək olmaq və eyni zamanda ailələrin üzərinə düşən maddi yükü azaltmaqdır.

Bu missiyanın həyata keçirilməsi məqsədilə Fond iki növ təhsil tələbə krediti təqdim edir- sosial təhsil tələbə krediti və standart təhsil tələbə krediti.

Sosial kreditlər aztəminatlı və xüsusi kateqoriyaya aid ailələrin övladları üçün illik 2% faizlə təklif olunur. Ümumiyyətlə, təhsil tələbə kreditləri ilk növbədə sosial növ üzrə hüququ olan tələbələrə verilir. Əgər tələbə bu kateqoriyaya daxil deyilsə, o zaman illik 6% dərəcəsi ilə standart təhsil kreditinə müraciət edə bilər və müəyyən olunmuş şərtlərə uyğun gəldiyi halda bu imkandan yararlana bilər.

Kreditlərin geri ödənişi tələbə təhsilini başa vurduqdan və işlə təmin olunduqdan sonra başlayır. Bu isə tələbənin təhsil dövründə əlavə maliyyə yükü ilə qarşılaşmaması üçün düşünülmüş sosial yönümlü bir yanaşmadır. Müraciətlərin tam elektron platforma e-ttkf.edu.az portalı üzərindən, şəffaf, sadə və sürətli şəkildə qəbul olunması da prosesi daha əlçatan edir.

Bu günədək TTKF vasitəsilə ölkənin müxtəlif bölgələrindən olan minlərlə tələbə təhsil kreditindən faydalanıbdır.

Rəqəmlə desək, 57 mindən çox tələbə təhsil tələbə kreditindən yararlanaraq təhsil almaq arzusunu reallaşdırıb.

Onların 34.6%-i sosial, 65.4%-i isə standart növ təhsil tələbə kreditidir. Qurumdan verilən məlumata görə, gender bölgüsü üzrə kredit müqavilələrinin 61.6%-i qadın, 38.4%-i isə kişi tələbələrin payına düşür. Rəsmiləşdirilən kreditlərdən 69.3%-i bakalavriat, 24.7%-i magistratura, 5.5%-i orta ixtisas təhsili, 0.5%-i isə peşə təhsilinə aiddir. Bu günədək geri ödənişi başlamış və akademik göstəriciləri yüksək olan 428 sosial kredit üzrə 50%, 990 standart kredit üzrə isə 25% güzəşt tətbiq olunub. Ümumilikdə 466 min manatdan bir qədər çox vəsait isə təhsil tələbə kreditindən yararlananlara bağışlanıbdır.

Fondun ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Gülnar Zeynalova isə "Unikal"a açıqlamasında bildirib ki, Təhsil Tələbə Kreditinə görə faizlərin hesablanmasında və kreditin qaytarılmasında təhsilin nəticələrindən asılı olaraq tətbiq edilən güzəştlər tələbənin təhsil göstəricilərindən asılıdır.

Belə ki, sosial növdə ÜOMG-si (ümumi orta müvəffəqiyyət göstəricisi) 71, standart növdə isə 91 bal və yuxarı olan tələbələrə həmin semestr üçün götürdüyü kreditə görə faiz hesablanmır.

Təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbələr aldığı Sosial təhsil tələbə kreditinin 50 faizi, standart təhsil tələbə kreditinin isə 25 faizi hissəsinin geri ödənişindən azad olunur.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 13





## Gəlnini öldürməkdə təqsirləndirilən qayınatanın məhkəməsi başladı

***Maştağa qəsəbəsində gəlnini qətlə yetirməkdə təqsirləndirilən Ağanəbi Əliyevin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Seyidovun sədrliyi ilə keçirilən ilk prosesdə təqsirləndirilənin anket məlumatları dəqiqləşdirilib.

Ağanəbi Əliyev barədə seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilmədən cinayət işinin məhkəmə istintaqına verilməsi ilə bağlı qərar qəbul edilib.

Növbəti iclas sentyabrın 18-nə təyin edilib.

Xatırladaq ki, hadisə 2025-ci ilin mayında Maştağa qəsəbəsinin Nəriman Nərimanov küçəsi 71, ev 62 ünvanında baş verib. 66 yaşlı Ağanəbi Əliyev 33 yaşlı gəlnini - Dürdanə Əliyevanı bıçaqlayaraq qətlə yetirməkdə təqsirləndirilir. Hadisənin tərəflər arasındakı mubahisə zamanı işlədilən sərt ifadələr nəticəsində törədildiyi bildirilir.

Onu da qeyd edək ki, qətlə yetirilən Dürdanə Əliyeva üç azyaşlı övladı var.

Faktla bağlı Sabunçu rayon prokurorluğunda CM-nin 120.1-ci maddəsi ilə cinayət işi açılaraq ittiham irəli sürülüb.

***Seymur Əli***

## 14 yaşlı bacısı oğluna işgəncə verən xala barəsində qərar verildi

***Himayəsində olan 14 yaşlı bacısı oğluna işgəncələr verərək xəsarətlər yetirdiyinə görə saxlanılan Günay Novruzova barəsində həbs-qətimkan tədbiri seçilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Sabunçu Rayon Məhkəməsinin qərarı ilə onun barəsində istintaq müddəti üçün 3 aylıq həbs qərarı qəbul edilib.

Qeyd edək ki, qəyyumu tərəfindən zorakılığa məruz qalan uşaqla bağlı prosessual tədbirlər DİN-in nəzarətinə götürülüb. Belə ki, fakta görə Sabunçu RPİ-də Cinayət Məcəlləsinin əzab vermə maddəsi ilə cinayət işi başlanılıb.

Xatırladaq ki, 14 yaşlı yeniyetmə valideynlərini itirib. Ona xalası tərəfindən işgəncə verildiyi iddia olunub. Yeniyetmə artıq səhiyyə müəssisəsinə yerləşdirilib.

## Narkotiklərin satışını təşkil edən şəxs saxlanıldı

***Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən əvvəllər məhkum olunmuş Şahin Rüstəmli saxlanılıb.***

DİN-nin Mətbuat Xidmətinin Şirvan regional qrupundan "Unikal"a verilən məlumata görə, ondan ümumi çəkisi 2 kiloqram 500 qram heroin və marixuana aşkarlanıb.

Ş.Rüstəmli narkotik vasitələri sosial şəbəkələrdə tanış olduğu şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşından satmaq məqsədi ilə əldə etdiyini bildirib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# 2025-ci ilin yanvar-iyun ayları ərzində Sumqayıt şəhərinin sosial-iqtisadi göstəriciləri belə olub

***2025-ci ilin yanvar-iyun ayları ərzində məhsul buraxılışının həcmi 2616563,1 min manat olmuşdur.***

2025-ci ilin yanvar-iyun aylarında sənaye təsərrüfat subyektləri tərəfindən istehsal olunmuş mal və xidmətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz artaraq 2103562,7 min manat təşkil etmişdir.

Hesabat dövründə Emal sənayesində 1831613,2 min manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

2025-ci ilin yanvar-iyun aylarında sənaye məhsulunun 0,1 faizi mədənçıxarma, 87,0 faizi emal, 12,10 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

### Tikinti

2025-ci ilin yanvar-iyun aylarında şəhərin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 150625,4 min manat vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 113956,5 min manatı və ya 75,7 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

### Nəqliyyat

2025-ci ilin yanvar-iyun ayları ərzində nəqliyyat sahəsində fəaliyyət göstərən statistik vahidlərin təqdim etdikləri işlər, müayinələr nəzərə alınaraq göstərilmiş işin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 28,5 faiz artaraq 36995,6 min manat təşkil etmişdir.

2025-ci ilin yanvar-iyun aylarında avtomobil nəqliyyatı ilə 2091 min ton yük daşınmış və 2024-cü ilin yanvar-iyun aylarına nisbətən 7,5 faiz, avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 66911 min nəfər sərnişin daşınmış və 2024-cü ilin yanvar-iyun aylarına nisbətən 6,5 faiz artmışdır.



### İnformasiya və rabitə

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 2025-ci ilin yanvar-iyun aylarında 44715,8 min manat təşkil etmişdir ki, onun da 12569 min manatı (28,1 faizi) əhali tərəfindən istifadə olunmuşdur. Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 2024-cü ilin yanvar-iyun aylarına nisbətən 36,8 faiz artmışdır.

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 11,0 faiz, qeyri-dövlət sektorunun xüsusi çəkisi 89,0 faiz təşkil etmişdir.

### Ticarət və istehlak bazarı

2025-ci ilin yanvar-iyun ayları ərzində istehlakçıların tələbatının ödənilməsi məqsədi ilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 1244060,7 min manat olmaqla 2024-cü ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 8,7 faiz artıq istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir.

Hesabat dövründə ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə müqayisəli qiymətlərlə 9,1 faiz artaraq 963423,1 min manat təşkil etmişdir.

İaşə şəbəkələrində əhaliyə 29437,6 min manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,3 faiz artıq iaşə xidmətləri göstərilmişdir.

Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2024-cü ilin müvafiq dövrünə nisbətən real ifadədə 9,5 faiz artaraq 251200,0 min manat təşkil etmişdir

### Əhali

İlin əvvəlindən Sumqayıt şəhər əhalisinin sayı (məcburi köçkünlər istisna olmaqla) 400 nəfər artaraq 01.07.2025-ci il vəziyyətinə 428,0 min nəfərə çatmışdır

Ədliyyə Nazirliyinin şəhər qeydiyyat şöbələri tərəfindən 2025-ci ilin yanvar-iyun aylarında 1359 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə bu göstərici artaraq 5,6-dan 6,4-ə çatmışdır..

2025-ci ilin yanvar-iyun aylarında 1004 ölüm halı qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici artaraq 3,5-dən 4,7-yə çatmışdır.

2025-ci ilin yanvar-iyun aylarında şəhərdə 647 nikah və 335 boşanma halları qeydə alınmışdır.

***Sumqayıt Şəhər Statistika İdarəsi***

# Kolleclərin boş qalan plan yerlərinə qəbulun cavabları elan olundu

***Dövlət İmtahan Mərkəzi 2025-2026-cı tədris ili üçün ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul olunmaq üçün keçirilmiş müsabiqənin nəticələrini elan edib.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Abituriyentlər müsabiqənin nəticələri haqqında məlumatı DİM-in internet saytından və ya mobil operatorlar (Azercell, Bakcell, Nar) vasitəsilə "iş nömrəsi"ni 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər.

Müsabiqədə iştirak etmək üçün 2533 abituriyent ərizə təqdim edib. Onlardan 1014 abituriyent orta ixtisas təhsili müəssisəsinə qəbul olunub.

Qəbul olunan abituriyentlərin siyahısı "Abituriyent" jurnalının 10-cu nömrəsində dərc olunacaq. "Abituriyent" jurnalının 10-cu nömrəsinin elektron versiyasını (pdf formatında) sentyabrın 5-dən DİM-in saytının "Elektron xidmətlər" bölməsində "DİM nəşrlərinin elektron versiyalarının onlayn satışı" xidməti vasitəsilə ödəniş etməklə əldə edə bilərsiniz (Xidmətə keçid: http://eservices.dim.gov.az/ejurnal/).



Orta ixtisas təhsili müəssisələrinin boş qalan (vakant) yerlərinə qəbul olunan abituriyentlər 10 - 17 sentyabr (saat 18:00-dək) tarixlərində portal.edu.az platformasında qeydiyyatdan keçməli və yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlər sırasında "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməlidirlər. Müəyyən olunan müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri orta ixtisas təhsili müəssisəsinə göndərilməyəcək.

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 14



# 2025-ci ilin ilk 6 ayında Astaranın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***2025-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 13,4 faiz azalaraq 118721,9 min manat olmuşdur. İstehsal edilmiş məhsul və xidmətlərin rayon əhalisinin hər nəfərinə düşən dəyəri 1051,3 manat təşkil etmişdir.***

Məhsul və xidmətlərin 37,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 35,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,0 faizi sənaye, 10,8 faizi tikinti, 3,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi informasiya və rabitə sahələrində istehsal edilmişdir.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-iyun aylarında 15459,4 min manatlıq sənaye məhsulu istehsal edilmiş, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 45,3 faiz azalmışdır.

Sənaye məhsulunun 49,8 faizi emal sektorunda, 46,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 3,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Sənayedə qeyri-dövlət sektorunun payı 49,8 faiz olmuşdur.

Emal sənayesində ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla 7703,8 min manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 51,9 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 7,7 dəfə artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2025-ci il vəziyyətinə 2000,3 min manatlıq hazır məhsul olmuşdur.

Kənd təsərrüfatı məhsullarının yığımı davam edir. İyul ayının 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 258,3 ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 77,6 faiz çox dənli və dənli paxlalı bitkilər, 5915,1 ton (8,5 faiz az) tərəvəz, 5969,6 ton (1,1 faiz az) kartof, 197,6 ton (13,6 faiz çox) meyvə və giləmeyvə, 310,2 ton (4,1 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

2025-ci ilin yanvar-iyun aylarında diri çəkidə 2050,0 ton ət, 12611,0 ton süd, 4666,0 min ədəd yumurta, 18,0 ton yun, 83,2 kq barama istehsal olunmuşdur. 2024-cü ilin yanvar-iyun ayları ilə müqayisədə ət istehsalı 0,7 faiz, yumurta istehsalı 0,2 faiz, yun istehsalı 5,9 faiz artmış, süd istehsalı 2,1 faiz, barama istehsalı isə 54,9 faiz azalmışdır.

2024-cü ilin yanvar-iyun ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 1,8 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 6,3 faiz azalmış, heyvandarlıq məhsulları istehsalı isə 0,8 faiz artmışdır.

2025-ci ilin yanvar-iyun aylarında əsas kapitala 13830,3 min manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 40,1 faiz az vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 12892,3 min manatı və ya 93,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ilin yanvar-iyun aylarında 612,0 min ton yük və 4025,0 min sərnişin daşınmışdır. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 7,0 faiz, sərnişin daşınması isə 5,1 faiz artmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş 127,3 min manatlıq xidmətlərin 56,9 faizi əhali sektoruna aid olmuşdur. 2025-ci ilin yanvar-iyun aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 76,8 faiz azalmış, bu sahədə əldə edilmiş gəlirin 76,4 faizi dövlət sektorunun payına düşmüşdür.

2025-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 130470,6 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 22588,0 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 6,5 faiz artmış, ticarət şəbəkəsində 75184,8 min manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 55285,8 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2025-ci ilin yanvar-iyun aylarında istehlak qiymətləri indeksi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 106,9 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 107,4 faiz, qeyri-qida malları üzrə 103,0 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 109,9 faiz təşkil etmişdir.

2025-ci ilin yanvar-may aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 11,8 faiz artaraq 701,2 manata çatmışdır.

2025-ci ilin yanvar-iyun aylarında əhalinin sayı 228 nəfər və ya 0,2 faiz artaraq 2025-ci il iyul ayının 1-i vəziyyətinə 113043 nəfərə çatmışdır.

*Astara rayon Statistika İdarəsi*



# Azərbaycanın un ehtiyatlarının həcmi açıqlandı



***2024-cü ilin yekununda Azərbaycanın un ehtiyatlarının həcmi 1 milyon 764 min 476 ton təşkil edib.***

"Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu, 2023-cü illə müqayisədə 0,5 % azdır.

Ötən il ölkədə un ehtiyatlarının həcmində ən aşağı göstərici qeydə alınıb. Ehtiyatların 16,3 %-i ilin əvvəlinə olan qalıq, 77,4 %-i istehsal, 6,2%-i isə idxal hesabına formalaşıb.

2024-cü ildə Azərbaycanda 1 milyon 365 min 906 ton un istehsal edilib ki, bu da 2023-cü illə müqayisədə 2,8 % çoxdur. Hesabat dövründə ölkəyə un idxalının həcmi 28,2 % azalaraq 109 min 860 tona, ilin əvvəlinə olan qalıq isə 1,1% azalaraq 288 min 710 tona düşüb.

Ehtiyatların 3 min 68 tonu mal-qara və quş yemi üçün, 395 min 778 tonu əhalinin şəxsi istehlak fondu üçün, 930 min 239 tonu isə qida məhsullarının istehsalı üçün, 107 min 234 tonu qeyri-qida məhsullarının istehsalı üçün, 18 min 758 tonu ixrac üçün istifadə edilib. Hesabat ilində itkilərin həcmi 21 min 187 ton olub.

# ADSEA-ya daxil olan müraciətlərin sayı açıqlandı




***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi "Asan xidmət", "ASAN kommunal" mərkəzlərinə və "KOB evi"nə bu ilin 8 ayı ərzində daxil olan müraciətlərin xidmət növlərinə görə statistikasını açıqlayıb.***

"Unikal" xəbər verir ki, statistikaya əsasən, 14 xidmət istiqaməti üzrə 127,841 müraciət daxil olub. Bu müraciətlər arasında ən çoxu "Abonent məlumatlarında dəyişiklik edilməsi", ən azı isə "Mexaniki sayğacların smart tipli sayğaclarla əvəz olunması ilə əlaqədar yeni smart kartların verilməsi" xidməti üzrə qeydə alınıb. Ümumilikdə 122,303 müraciətə baxılıb və xidmət göstərilib. 5,538 abonentə isə müraciətlərinin tələblərə uyğun formalaşdırılması istiqamətində tövsiyələr verilib.

# 5 aptekdə nöqsanlar aşkarlanıb

***Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi avqust ayında ümumilikdə 23 aptekdə yoxlama keçirib.***




Mərkəzdən "Unikal"a verilən məlumata görə, bu yoxlamalardan 12-si Bakı şəhərində, 11-i isə respublikanın digər şəhər və rayonlarında yerləşən apteklərdə aparılıb.

Yoxlamaların 10-u planlı, 37-si plandankənar, 1-i isə yoxlamadan kənar təftiş xarakteri daşıyıb.

Aparılan yoxlamalar nəticəsində 5 aptekdə müxtəlif nöqsanlar aşkarlanıb, bu hallarla bağlı İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə müvafiq inzibati protokollar tərtib edilib.

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 15






## Bu məktəbin bütün məzunları tələbə oldu

***2024-2025-ci tədris ilində Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksini bitirən 41 məzunun hər biri yüksək ballarla ali məktəblərə qəbul olunub.***

"Unikal" xəbər verir ki, bu nəticə kompleksin tarixinə ardıcıl 15-ci dəfə 100 faizlik qəbul göstəricisi kimi yazılıb.

Kompleksin fəaliyyətə başladığı gündən indiyədək 360 məzunu olub. Onların hər biri ölkə daxilində və xaricdə nüfuzlu ali təhsil müəssisələrinə qəbul olublar.

## "Zamex" MMC ilə xidmət keyfiyyətinə dair müzakirə aparılıb

***Azərbaycanın telekommunikasiya və poçt sahələrində tənzimləyici qurumu İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyində (İKTA) poçt rabitəsi operatoru "Zamex" MMC-nin nümayəndələri ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, İKTA-nın İstehlakçı hüquqları şöbəsinin müdiri Sarvan Cəbrayılzadə görüşün əsas məqsədinin adıçəkilən poçt rabitəsi operatoru ilə bağlı son zamanlar İKTA-ya daxil olan şikayətlərin sayının artması olduğunu bildirib.

Şirkətin nümayəndəsi Küşvər Quliyeva vətəndaş şikayətlərinin artmasının səbəbinin ABŞ və Almaniyadan edilən sifarişlər üzrə "Zamex" MMC-yə məxsus anbarlarla bağlı olduğunu diqqətə çatdırıb.

O qeyd edib ki, həmin anbarlarda problemin yaşanması səbəbindən çatdırılma prosesində gecikmələr müşahidə olunub və bu barədə istifadəçilərə SMS bildirişi göndərilib. Həmçinin bununla bağlı poçt rabitəsi operatorunun rəsmi səhifəsində paylaşım edilib.

"Zamex" MMC-nin nümayəndəsi bildirib ki, hazırda ABŞ-dəki anbarın yerinin dəyişdirilməsi ilə müvafiq problem həll edilib və bağlamaların Bakıya çatdırılması üçün reyslər təyin edilib. Eyni zamanda Almaniya anbarında olan çətinliklər də aradan qaldırılıb.

Müzakirələr zamanı İKTA rəsmiləri xidmət səviyyəsinin yüksəldilməsi və müştəri məmnuniyyətinin artırılması üçün əlavə addımların atılmasının vacib olduğunu, bu istiqamətdə tənzimləyici qurumun səlahiyyətləri çərçivəsində dəstək verə biləcəyini əlavə ediblər.

## AZCON-da bu şöbəyə müdir təyin edildi

***Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqində (AZCON) yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, müvafiq əmrlə Şahlar Məmmədov AZCON-un korporativ hüquq və müqavilələrin idarəedilməsi şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

# 2025-ci ilin 6 ayında Kəlbəcər rayonunun iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***Ümumi məhsul buraxılışı. 2025-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 442 milyon 708,8 min manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,1 faiz azalmışdır.***

Ümumi məhsul buraxılışının 1,7 faizi sənaye, 5,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 92,1 faizi tikinti, 0,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,3 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 0,0 faizi isə informasiya və rabitə sahələrinin payına düşmüşdür.

Məhsul buraxılışının həcmi 2024-cü ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə sənaye sahəsində 71,3 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 7,4 faiz, tikinti sahəsində 6,9 faiz azalmış, nəqliyyat və anbar təsərrüfatı sahəsində 31,4 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində isə 56,7 faiz artmışdır.

2025-ci ilin yanvar-iyun aylarında məhsul və xidmətlərin 32 milyon 818,8 min manatı və ya 7,4 faizi iqtisadiyyatın qeyri-dövlət sektoruna aid olmuş və 2024-cü ilin müvafiq dövrünə nisbətən 17,7 faiz artmışdır.

Sənaye. 2025-ci ilin yanvar-iyun aylarında sənaye müəssisələri, həmçinin sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 71,3 faiz az və ya 7 milyon 394,5 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Kənd təsərrüfatı. 2025-ci ilin yanvar-iyun aylarında kənd təsərrüfatının ümumi məhsulunun dəyəri sabit qiymətlərlə əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,4 faiz az olaraq, 25 milyon 657,9 min manat təşkil etmişdir ki, bunun da 99,3 faizi heyvandarlıq məhsullarının, 0,7 faizi isə bitkiçilik məhsullarının payına düşür.

2025-ci ilin yanvar-iyun aylarında quş əti də daxil olmaqla diri çəkidə



1811,0 ton ət, 11935,6 ton süd, 235,4 ton yun və 1808,0 min ədəd yumurta istehsal olunmuşdur.

2024-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 6,6 faiz, süd istehsalı 8,6 faiz, yun istehsalı 7,1 faiz, yumurta istehsalı isə 5,1 faiz azalmışdır.

Tikinti. 2025-ci ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 409 milyon 936,0 min manat məbləğində vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 99,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 6,7 faiz, tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin həcmi isə 6,9 faiz azalmışdır.

Nəqliyyat. 2025-ci ilin yanvar-iyun aylarında nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlir 275,5 min manat, yük daşınmasında isə 30,6 min manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən sərnişin daşınmasından əldə olunan gəlir 3,8 faiz, yük daşınmasında isə 4,4 faiz çox olmuşdur.

Ümumilikdə 2025-ci ilin yanvar-iyun aylarında nəqliyyat və anbar təsərrüfatı sahəsində ümumi məhsul buraxılışının dəyəri sabit qiymətlərlə, əvvəlki ilin müvafiq dövrünə nisbətən 31,3 faiz artaraq 401,8 min manat təşkil etmişdir.

İnformasiya və rabitə. 2025-ci ilin yanvar-iyun aylarında informasiya və rabitə müəssisələri tərəfindən faktiki qiymətlərlə 11,1 min manatlıq xidmət göstərilmişdir.

Pərakəndə ticarət. 2025-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarətin dövriyyəsi 3 milyon 851,6 min manat və ya 2024-cü ilin müvafiq dövrünə nisbətən 156,7 faiz təşkil etmişdir.

Yeni iş yerləri. 2025-ci ilin yanvar-iyun aylarında rayon üzrə 160 yeni daimi iş yerləri açılmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,8 dəfə çox olmuşdur. Açılmış iş yerlərinin 76-sı yeni yaradılmış müəssisə və təşkilatlarda, 84-ü isə mövcud müəssisə və təşkilatlarda yaradılmışdır.

Açılmış iş yerlərinin 73-ü və ya 45,6 faizi dövlət mülkiyyətində olan müəssisələrdə, 87-si və ya 54,4 faizi isə qeyri-dövlət mülkiyyətində olan müəssisələrdə yaradılmışdır.

2025-ci ilin yanvar-iyun aylarında 232 yeni fərdi sahibkarlıq subyektləri yaradılmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,3 faiz çox olmuşdur.

Əmək bazarı. 2025-ci il iyun ayının 1-i vəziyyətinə rayonun iqtisadi və sosial sahələrində muzdla çalışan işçilərin sayı 5839 nəfər təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,0 faiz az olmuşdur. Dövlət mülkiyyətində olan müəssisələrdə çalışan işçilərin sayı 5558 nəfər, qeyri-dövlət mülkiyyətində olan müəssisələrdə çalışan işçilərin sayı isə 281 nəfər olmuşdur.

2025-ci il iyun ayının 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 20,5 faiz artaraq 746,5 manat təşkil etmişdir.

Əhali. 01 iyul 2025-ci il tarixə rayon üzrə əhalinin sayı 72,6 min nəfər olmuşdur.

***Kəlbəcər rayon Statistika İdarəsi***

# Baş Prokurorluq və DSX-dən birgə əməliyyat - Saxlanılanlar var

***Dövlət Sərhəd Xidməti tərəfindən dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.***

"Unikal" xəbər verir ki, tədbirlərin davamı kimi, dövlət sərhədini pozmaqla Xəzər dənizindən Azərbaycan Respublikası ərazisinə külli miqdarda narkotik vasitəni keçirməyə cəhd göstərən mütəşəkkil qaçaqmalçı qrupun üzvləri saxlanılıb.

Belə ki, sentyabrın 4-də saat 00:25-də Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sularında - Neftçala rayonu istiqamətində sürətlə hərəkət edən naməlum üzmə vasitəsi müşahidə olunub. Sərhəd gəmiləri tərəfindən dərhal təqibetmə əməliyyatı həyata keçirilərək sahil xəttinin qapadılması üzrə zəruri tədbirlər görülüb.

Keçirilmiş əməliyyat-axtarış və təqibetmə tədbirləri zamanı sərhəd gəmisinin işıq və səs siqnallarından istifadə edilməklə "Dayan" komandası verilərək xəbərdarlıq atəşi açılsa da, sərhəd pozucuları Azərbaycanın ərazi sularını tərk etməyə cəhd göstərdiyindən onların saxlanılması məqsədi ilə üzmə vasitəsinin mühərrik hissəsi hədəfə alınmaqla atəş açılıb.

Üzmə vasitəsində baş vermiş yanğın səbəbilə hər iki şəxs bağlamalarla birlikdə özlərini dənizə atsa da, keçirilmiş xilasetmə tədbirləri nəticəsində sərhəd pozucuları sudan çıxarılaraq yaralıya ilkin tibbi yardım göstərilib, "Yamaha-200" markalı "Layner" tipli üzmə vasitəsində baş vermiş yanğın söndürülüb, dənizə atılmış bağlamada isə ümumi çəkisi 11 kiloqram 850 qram narkotik vasitə aşkarlanaraq götürülüb.

İlkin araşdırma nəticəsində sərhəd pozucularının İran İslam Respublikası vətəndaşları - 1994-cü il təvəllüdlü Qulreza Cavad Alireza və 1996-cı il təvəllüdlü Bordbar Milad Mansur olduqları müəyyən edilib.




Faktla bağlı Dövlət Sərhəd Xidmətində Cinayət Məcəlləsinin 206.3.2 (qaçaqmalçılıq), 234.4.1, 234.4.3 (narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi) və 318.2 (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanaraq Baş Prokurorluqla birgə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

33_27 IYUl-QARA.qxd 9/4/2025 10:59 PM Page 16



# Azərbaycanın U-19 millisi İslandiyaya qalib gəldi



***Sloveniyada təlim-məşq toplanışında olan 19 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası "Slovenia Nations Cup" yoldaşlıq turnirində ilk oyununa çıxıb.***

"Unikal" xəbər verir ki, U-19 İslandiyanın müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. "Preddvor" stadionunda keçirilən görüş Elxan Abdullayevin yetirmələrinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Komandamızın heyətində qolları 46-cı dəqiqədə Ziya Şəkərxanov və 55-ci dəqiqədə Şahin İbrahimov vurublar.

U-19 beynəlxalq turnir çərçivəsində növbəti oyununu sentyabrın 6-da Farer adaları yığmasına qarşı keçirəcək.

# "Everton"un müdafiəçisi millimizlə oyunu buraxacaq

***DÇ-2026-nın seçmə mərhələsinin 2-ci turunda Azərbaycan millisinin qonağı olacaq Ukrayna seçməsinin heyətində ciddi itki baş verib.***

"Unikal" xəbər verir ki, sol cinah müdafiəçisi Vitali Mikolenko sıradan çıxıb. Bu barədə yerli federasiyanın mətbuat xidməti məlumat yayıb.



"Everton"un futbolçusu klubunda zədə alıb. Onun əvəzinə Kiyev "Dinamo"sundan Vladislav Dubinçak yığmaya dəvət olunub.

Qeyd edək ki, Azərbaycan - Ukrayna qarşılaşması 9 sentyabr tarixində Tofiq Bəhramov adına Respublika Stadionunda baş tutacaq.

# "Kəpəz"in baş məşqçisinə vaxt verildi

***"Kəpəz" klubunun İdarə Heyətinin iclasında bəzi qərarlar qəbul edilib.***

"Unikal" xəbər verir ki, bu barədə klubun Mətbuat xidməti məlumat yayıb. Qeyd olunub ki, görüşdə İdarə Heyətinin sədri, üzvləri və baş məşqçi Adil Şükürov iştirak ediblər. İclasda komandanın Premyer Liqanın ilk üç turunda göstərdiyi nəticələr müzakirə olunub.

Klub rəhbərliyi kollektivin hər üç matçda məğlub olmasından narahatlığını ifadə edib və baş məşqçinin qarşısına növbəti üç tur ərzində komandanı toparlamaq və xalların bərpa olunması hədəf kimi qoyulub.

Bundan əlavə, iclasda bir sıra qərarlar qəbul olunub.

Belə ki, Erkin İbrahimov şəxsi vəziyyəti ilə əlaqədar klubun işlərinə tam köklənə bilmədiyini bildirib və İdarə Heyətinin üzvlüyündən ayrılmaq istədiyini təkrar olaraq açıqlayıb. İdarə Heyətinin sədri müraciəti qəbul edib və nəticədə E.İbrahimov üzvlükdən çıxarılıb. Digər struktur dəyişiklikləri barədə isə yaxın günlərdə məlumat veriləcəyi bildirilib.

Qeyd edək ki, A.Şükürov 2 ay öncə klubun baş məşqçisi postuna gətirilmişdi.



# İtaliya millisində itki



***İtaliya millisi itki ilə üzləşib. QOL.az xəbər verir ki, bu bardə İtaliya Futbol Federasiyası məlumat yayıb.***

"Atalanta"nın mərkəz hücumçusu Canluka Skamakka yenidən zədələnib. Bu səbəbdən də 26 yaşlı forvard İtaliya millisini tərk edib.

Qeyd edək ki, Skamakka zədə səbəbindən 2024/25 mövsümündə "Atalanta"nın 50 matçını buraxıb.

İtaliya millisi DÇ-2026-nın seçmə mərhələsi çərçivəsində sabah Estoniya ilə, sentyabrın 8-də isə İsraillə qarşılaşacaq.

# "Bayer"də daha bir baş məşqçi namizədi

***"Bayer"in baş məşqçi vəzifəsinə daha bir namizəd müəyyənləşib.***

Bu barədə "Sky Sports" məlumat yayıb. Leverkuzen təmsilçisini "Tottenhem"in keçmiş baş məşqçisi Ange Postekoqlu çalışdıra bilər. Leverkuzenlilər bir neçə variantı nəzərdən keçirir. Bu namizədlər arasında "Real"keçmiş hücumçusu Raul da var. İdarə Heyətinin həftəsonuna qədər qərar verəcəyi gözlənilir. Xatırladaq ki, "Bayer"in son baş məşqçisi Erik ten Haq Bundesliqanın 2-ci turundan sonra istefaya göndərilmişdi.



## "Fənərbaxça"ya baş məşqçi o gələ bilər

***"Fənərbaxça" portuqaliyalı baş məşqçi Serjiu Konseysau ilə danışıqlar aparır.***

Bu barədə "Fanatik" nəşri məlumat yayıb. İstanbul nəhəngi portuqaliyalı mütəxəssisə 2 illik müqavilə təklif edib.

Bildirilib ki, 50 yaşlı məşqçi Türkiyədə çalışmağa isti yanaşır.

Qeyd edək ki, Serjiu Konseysaunun son klubu "Milan" olub.

## Hacinin oğlu Superliqa klubunda

***"Qalatasaray"ın əfsanələrindən olan George Hacinin oğlu Yanis Haci karyerasını Türkiyədə davam etdirəcək.***

QOL.az xəbər verir ki, "Alanyaspor" rumıniyalı hücumameyilli yarımmüdafiəçini transfer edib. Bu barədə Superliqa klubunun mətbuat xidməti məlumat yayıb. 26 yaşlı futbolçu ilə imzalanan müqavilənin detallarını hələlik açıqlamayıb.

Qeyd edək ki, Yanis Hacinin son klubu "Reyncers" (Şotlandiya) olub.

## "Çelsi"dən Niderland klubuna keçdi

***UEFA Çempionlar Liqasında "Qarabağ"ın rəqiblərindən olan "Çelsi" futbolçusu Kiano Dayerlə müqavilə imzalayıb və onu Niderland Erediviziyasına yüksələn "Volendam"a icarəyə verib.***

QOL.az xəbər verir ki, bu barədə London klubunun mətbuat xidməti məlumat yayıb.

18 yaşlı yarımmüdafiəçi ilə müqavilənin müddəti 2030-cu ilə qədərdir.

Qeyd edək ki, "Qarabağ" UEFA Çempionlar Liqasının 4-cü turunda "Çelsi" ilə Bakıda üz-üzə gələcək. Qarşılaşma noyabrın 5-də keçiriləcək.

## "Sabah"ın futbolçusu Özbəkistan millisində qol vurdu

***"Sabah"ın yarımmüdafiəçisi Umarali Raxmonaliyevin də formasını geyindiyi Özbəkistanın U-23 millisi Asiya kubokunun seçmə mərhələsində Şri-Lanka ilə üz-üzə gəlib.***

QOL.az xəbər verir ki, oyunda Özbəkistan yığması 4:0 hesablı qələbə qazanıb. Umarali Raxmonaliyev də bu görüşün iştirakçısı olub. Komandasının qollarından birini də Raxmonaliyev vurub. 22 yaşlı yarımmüdafiəçi 38-ci dəqiqədə fərqlənib.

Qeyd edək ki, Umarali Raxmonaliyev bu ilin yanvar ayından "Sabah"ın formasını geyinir.

## Türkiyə millisi 1/8 finala yüksəldi

***Basketbol üzrə Türkiyə millisi Avropa çempionatının A qrupunda son oyununa çıxıb.***

"Unikal" xəbər verir ki, yığma Serbiya seçməsi ilə üz-üzə gəlib. Latviyanın paytaxtı Riqadakı "Xiaomi Arena"da keçirilən matç Türkiyə millisinin 90:95 hesablı qələbəsi ilə başa çatıb.

Komanda bu nəticə ilə qrup mərhələsini lider kimi tamamlayaraq, 1/8 finala yüksəlib.

Turnirin 1/8 final oyunları sentyabrın 6-7-də, 1/4 final qarşılaşmaları ayın 9-10-da, yarımfinal matçları isə 12-də təşkil olunacaq. Avropa çempionunu müəyyənləşdirəcək final və üçüncülük görüşləri sentyabrın 14-də baş tutacaq.